# BİZ BU TORPAQLARDA ƏBƏDİ YAŞAYACAĞIQ!

**NAXÇIVAN MUXTAR RESPUBLİKASI BASKETBOL FEDERASİYASININ HESABAT YIĞINCAĞI KEÇİRİLİB**
səhifə-2-də

**“ƏNƏNƏVİ İNCƏSƏNƏT VƏ SƏNƏTKARLIQ NÜMUNƏLƏRİ” SƏRGİSİ KEÇİRİLİB**
səhifə-3-də

**“TURİZM “ŞƏRQ QAPISI” QƏZETİNİN SƏHİFƏLƏRİNDƏ” VƏ “BURA NAXÇIVANDIR” ADLI KİTABLARIN TƏQDİMATI OLUB**
səhifə-4-də

**ELMİN, İNKİŞAFIN VƏ YENİLİKÇİ İDEYALARIN ÜNVANI: DOĞMA NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ**
səhifə-5-də

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ: GÜCLÜ DAYAQLAR ÜZƏRİNDƏ HƏDƏFLƏRƏ DOĞRU**
səhifə-6-da

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ AZƏRBAYCANIN ƏN DƏYƏRLİ, QABAQCIL ALİ MƏKTƏBLƏRİNDƏN BİRİDİR**

***HEYDƏR ƏLİYEV***




# YENİ FİKİR

TƏSİSÇİ: NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

31 yanvar 2022-ci il, №1 (43)


## NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ 2021-Cİ İLİN YEKUNLARI VƏ ALTINCI ÇAĞIRIŞ NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN ALTINCI SESSİYASINDA QARŞIYA QOYULAN VƏZİFƏLƏRƏ DAİR MÜŞAVİRƏ KEÇİRİLİB

Universitetin rektoru Elbrus İsayev 2021-ci ilin yekunlarına dair müşavirədə qeyd edib ki, Naxçıvanda Ulu Öndər Heydər Əliyevin siyasi kursunun uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün muxtar respublika sosial, iqtisadi sahədə irəliləyişə, ictimai həyatda nailiyyətlərə müvəffəq olub. Dövlət Proqramında nəzərdə tutulan tədbirlər sırasında təhsil quruculuğunun xüsusi yer tutduğunu qeyd edən rektor bildirib ki, ötən ildə də təhsil siyasəti uğurla davam etdirilib, universitetin bütün kampuslarında yenidənqurma və bərpa işləri aparılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin böyük diqqət və qayğısı nəticəsində ötən ildə də təhsil siyasəti uğurla davam etdirilib, universitetin bütün kampuslarında yenidənqurma və bərpa işləri aparılıb. Xarici dillər fakültəsinin yeni tədris korpusunun istifadəyə verilməsi, Texnologiyalar Parkının təməlatma mərasiminin keçirilməsi ötən ilin ən böyük uğurlarındandır.

Diqqətə çatdırılıb ki, 2021-ci il 3 sentyabr tarixdə “Times Higher Education” (The World University Rankings 2022) dünya universitetləri portalında reytinq sıralamasında dünyanın ən yaxşı universitetləri arasında Naxçıvan Dövlət Universiteti də yer alıb. Həmçinin “Azərbaycan universitetləri” səhifəsinin keçirdiyi “2021-ci ilin ən yaxşı rektoru” sosial tələbə sorğusunda universitetin rektoru Elbrus İsayev “ilin ən yaxşı universitetinin ən yaxşı rektoru” mükafatını qazanıb. Bildirilib ki, hazırda universitet 43 kafedradan ibarət elmi-təşkilati struktura malikdir. Hesabat dövründə universitetdə fəaliyyət göstərən elmi dərəcəlilərin sayı 175 nəfər olmaqla 20 nəfəri elmlər doktoru, 155 nəfəri fəlsəfə doktoru, 13 nəfəri professor, 124 nəfəri dosent, 3 nəfər əməkdaş isə AMEA-nın müxbir üzvüdür.

Qeyd olunub ki, müasir tipli və çoxprofilli dünya təhsil sisteminə inteqrasiya edən universitetdə hesabat ilində 10 fakültə üzrə bakalavr təhsil səviyyəsinin əyani və qiyabi şöbələrində 70 ixtisas üzrə 6027 tələbə, magistratura təhsil səviyyəsində 88 ixtisaslaşma üzrə 430 magistrant, doktorantura səviyyəsi üzrə 131 doktorant və rezidentura üzrə 70 rezident təhsil alır. 2021-2022-ci tədris ilində ali təhsil ocağının bakalavr və magistr təhsil səviyyələri üzrə müasir dövrün tələblərinə cavab verəcək bir sıra yeni ixtisaslar üzrə tələbə qəbulu aparılıb. 2021-2022-ci tədris ilində ali təhsil ocağının bakalavr və magistr təhsil səviyyələri üzrə müasir dövrün tələblərinə cavab verəcək Hərbi tibb, Filologiya, Psixologiya, Elektrik və elektronika mühəndisliyi, Dövlət və ictimai münasibətlər, Kompüter mühəndisliyi, Beynəlxalq ticarət və logistika, magistratura səviyyəsi üzrə isə Cinayət hüququ, cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası, tədrisi ingilis dilində İqtisadiyyatın tənzimlənməsi, Bitkilərin genetikası və seleksiyası, İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi, Baytarlıq cərrahiyyəsi, Farmokoqnoziya, Torpaqşünaslıq və aqrokimya kimi yeni ixtisaslar üzrə tələbə qəbulu aparılıb.

Vurğulanıb ki, tədris prosesində İKT-nin tətbiqi sahəsində professor-müəllim heyətinin fənlər üzrə mühazirə mətnləri elektronlaşdırılıb və ixtisaslar üzrə tələbələrin şəxsi kabinetlərinə (LMS-ə) yerləşdirilib. İlk dəfə olaraq payız semestrinin imtahan sessiyasından əvvəl tələbələrin imtahana qədərki balları şəxsi kabinetlərinə yüklənilib, universitetdə tətbiq olunan elektron jurnal və imtahan sisteminin imkanları genişləndirilib, semestrin əvvəlində imtahanların aparılması ilə bağlı tələbələrə əvvəlcədən məlumatlar verilib və cari qiymətləndirmələr buna uyğun aparılıb. 2021-ci il ərzində imtahan sessiyalarında elektron test üsulu ilə 1141 sayda imtahan keçirilib. Ali təhsil ocağının İKT və ET şöbəsi tərəfindən hazırlanan “E-cədvəl” mobil tətbiqi Elm, Təhsil və İnnovasiyalar tətbiqlər və utilitlər nominasiyası üzrə “NETTY 2021” Azərbaycanın milli internet - mükafatına layiq görülüb.

Elbrus İsayev diqqətə çatdırıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 9 avqust tarixdə təsdiq etdiyi “2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram”ın icrası ilə bağlı universitetdə əyani şöbəsinin bakalavriat və magistratura təhsil pilləsində təhsil alan bütün I kurs tələbələrinə yeni nəsil Smart tələbə kartlarının verilməsi təmin edilib. Ali Məclis Sədrinin 2018-ci il 9 aprel tarixdə təsdiq etdiyi “Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı”, 18 noyabr 2016-cı il tarixdə təsdiq etdiyi “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı”nın, 2021-ci il 25 iyun tarixdə təsdiq etdiyi “Ali və orta ixitisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” Sərəncamının icrası istiqamətində ali təhsil ocağında müvafiq tədbirlər görülüb.



Rektor vurğulayıb ki, ötən ildə ali təhsil ocağı beynəlxalq əməkdaşlıqda bir sıra nailiyyətlərə imza atıb. 2021-ci ilin iyul ayında universitetin nümayəndə heyəti ali təhsil ocağında yeni qurulacaq texnopark layihəsində təcrübə əldə etmək məqsədilə Türkiyənin Çankırı Karatekin Universiteti, Hacı Bayram Vəli Universiteti, Ankara Universiteti, Qazi Universiteti, Yıldız Texniki Universiteti, İstanbul Texniki Universiteti, Orta Doğu Texniki Universitetlərində, Türkiyə Ali Təhsil Şurasında olub və əməkdaşlıq müqavilələri imzalanıb. İkili diplom layihələri çərçivəsində müxtəlif sahələr üzrə proqram və layihələr həyata keçirmək, universitetlər arasındakı əlaqələri möhkəmləndirmək üçün birgə elmi məqalələr və jurnallar tərtib etmək, hər il qarşılıqlı olaraq mütəmadi simpoziumlar təşkil etmək, Erasmus+, Mövlana proqramları çərçivəsində akademik müəllim-tələbə mobilliyi həyata keçirmək üçün müzakirələr aparılıb.

Ali təhsil ocağında Avropa Birliyinin Erasmus+ LMQS- “Rusiya Federasiyası, Qazaxıstan və Azərbaycanda səhiyyədə strateji keyfiyyət menecmenti və risklərin idarə olunması üzrə açıq və distant təhsil formatında peşə bakalavrı və magistri” layihəsi çərçivəsində onlayn görüşlər keçirilib və universitetin nümayəndə heyəti Yunanıstanda keçirilən təlimlərdə iştirak edib.

Qeyd edilib ki, ali təhsil ocağında da mühüm yeniliklərdən biri də Naxçıvan Musiqi Kollecinin 2021-ci il 11 iyun tarixində universitetin nəzdinə keçməsidir. Musiqi Kollecində hazırda 13 ixtisas üzrə əyani və qiyabi tədris həyata keçirilir. Əyani təhsildə 493 tələbə, qiyabi təhsildə isə 21 tələbə təhsil alır.

Rektor diqqətə çatdırıb ki, kafedra əməkdaşları tərəfindən 2021-2025-ci illər üçün Universitet Elmi Şurası tərəfindən təsdiq olunmuş layihəyə əsasən 23 elmi istiqamət və 51 problemlə 344 əməkdaş 342 mövzu üzrə elmi tədqiqat işi yerinə yetirib. Hesabat ilində Əczaçılıq və Biokimya laboratoriyalarında dərman bitkilərinin çıxarışları, ekstraktları, uçucu yağları və eyni zamanda arıçılıq məhsullarının ekstraktları və fəal birləşmələri alınıb. Universitetin Tibb fakültəsinin dekanı, biologiya üzrə fəlsəfə doktoru, dosent Elsevər Əsədovun “Arı vərəmumu əsaslı oral və nazal sprey” layihəsi patent üçün Əqli Mülkiyyət üzrə Dövlət Agentliyinə göndərilib və ilkin mərhələdən keçib. Tibb fakültəsinin Əczaçılıq və Biokimya laboratoriyalarında təbii məhsullara əsaslanaraq hazırlanan müxtəlif məhsulların (spreylər, kremlər, damlalıqlar, üz maskaları və s.) universitetdə yaradılmış Yaşıl əczaxanada satış sərgisi olub.

Hesabat ilində “Elmi əsərlər” jurnalının Humanitar elmlər seriyası üzrə 42, İctimai elmlər seriyası üzrə 42, Təbiət və tibb elmləri seriyası üzrə 54, Fizika-riyaziyyat və dəqiq elmlər seriyası üzrə isə 19 elmi məqalə çap olunub.

Elbrus İsayev bildirib ki, ötən ildə ali təhsil ocağında 1 beynəlxalq konfrans, 1 konqres, 6 respublika səviyyəli elmi konfrans keçirilib. 2021-ci ildə universitet əməkdaşlarının 6 monoqrafiyası, 8 dərsliyi, 35 dərs vəsaiti, 94 metodik vəsaiti və proqramı, 464 elmi məqaləsi və 354 konfrans materialı çap olunub. Elmi məqalələrdən 102-si, konfrans materiallarından isə 196-sı xaricdə beynəlxalq konfrans toplularında dərc olunub. Nüfuzlu jurnallarda nəşrlərə gəldikdə isə müəllimlərin 34 sayda məqaləsi impakt faktorlu jurnallarda nəşr olunub. Onlardan 8-i Web of Science məlumat bazasına, 5-i Scopus elmi bazasına daxil olan elmi jurnallarda, 21-i isə sahə indeksli elmi jurnallarda dərc olunub. 2021-ci il ərzində universitetin qoşulduğu 3 beynəlxalq layihə çərçivəsində 7 onlayn görüş keçirilib. İl ərzində fakültələr üzrə müxtəlif mövzularda 29 vebinar, 8 elmi konfrans və 3 elmi-nəzəri seminar təşkil edilib.



Rektor diqqətə çatdırıb ki, Naxçıvan Dövlət Universiteti Yeni Azərbaycan Partiyası ərazi ilk Partiya Təşkilatının təşəbbüsü, universitet tələbə təşkilatlarının iştirakı ilə 1300-ə yaxın tələbəylə birgə Zəfər gününə həsr olunmuş "Zəfər" flaşmobu hazırlanıb.

2021-ci ildə müəllim və tələbələrin innovasiyalarının (startap layihələrinin) dəstəklənməsi üçün universitetin fakültələr arasında startap müsabiqəsi keçirilib.Tələbələrin “Ağıllı bitki”, “Easy buy”, “Buy-sell” layihələri mükafata layiq görülüb.

Naxçıvan Dövlət Universitetinin “Enactus” komandası “Waste will be best” layihəsi ilə 19 ali təhsil müəssisəsinin iştirak etdiyi “Enactus Onlayn Sahibkarlıq” müsabiqəsinin qalibi olub. Vurğulanıb ki, 2021-2022-ci tədris ilinin əvvəlində ali təhsil ocağında Türkiyə Respublikası, İran İslam Respublikası, Nigeriya, Özbəkistan, Pakistan, Banqladeş, Rusiya və Cənubi Koreyadan olmaqla 1493 tələbə təhsil alır ki, 1486 nəfəri bakalavr, 7 nəfəri magistr təhsil pilləsindədir. Hazırlıq kursunda müxtəlif ixtisaslar üzrə təhsil alan tələbələrin sayı 465 nəfərdir.

Universitet Televiziyası və “Nuhçıxan” radiosu da hər zaman işini günün tələbləri səviyyəsində qurmaqla muxtar respublika mediasına öz töhfələrini verirlər. Belə ki, Media mərkəzində 100-dən çox müəllimin video dərsləri, 40-a yaxın veriliş çəkilərək efirə təqdim olunub.

Elbrus İsayev ali təhsil ocağında idmanın inkişafından danışaraq qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 14 fevral 2020-ci il tarixdə təsdiq etdiyi “2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı”nın icrası ilə bağlı universitetdə yüksək ixtisaslı bədən tərbiyəsi və idman kadrlarının hazırlanması məqsədilə 16 idman növü üzrə dərsdənkənar məşğələlər təşkil edilib. Bu məşğələlərə 250- dən artıq tələbə idmançı cəlb edilib. Tələbələr muxtar respublikada, Azərbaycanda, hətta beynəlxalq miqyasda keçirilən yarışların qalibi olublar.

Müşavirədə 2021-ci ildə universitetdə İnformasiya-kommunikasiya texnologiyalarının, elektron təhsilin inkişafı və qarşıda duran vəzifələr mövzusunda İnformasiya-kommunikasiya texnologiyaları və elektron təhsil şöbəsinin müdiri Hüseyn Əsgərlinin, 2021-ci ildə universitetin idman sahəsində qazanılan nailiyyətlər və qarşıda duran vəzifələr mövzusunda Bədən tərbiyəsi və idman kafedrasının dosenti, idman klubunun sədri Məmmədəli Rəhimovun çıxışları dinlənilib.

Məruzə ətrafında çıxışlar dinlənildikdən sonra qarşıya qoyulmuş vəzifələrin icrası istiqamətində görüləcək işləri diqqətə çatdıran rektor vurğulayıb ki, cari ildə də əmək və iş intizamı daha da gücləndirilməli, kadr hazırlığına günün tələbləri səviyyəsində diqqət artırılmalıdır. Elbrus İsayev elektron universitet quruculuğu prosesinin davam etdirilməsinə və tədris prosesində ən müasir təlim texnologiyalarının uğurlu tətbiqinə diqqəti çəkərək konkret tapşırıqlar verib, yaradılan şəraitdən səmərəli istifadənin vacibliyini vurğulayıb.


**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

## NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN REKTORU ELBRUS İSAYEVƏ İLİN ƏN YAXŞI UNİVERSİTETİNİN ƏN YAXŞI REKTORU MÜKAFATI TƏQDİM OLUNUB

Naxçıvan Dövlət Universitetində təşkil edilən mükafatlandırma mərasimində çıxış edən Yeni Azərbaycan Partiyası Naxçıvan Dövlət Universiteti Ərazi İlk Partiya Təşkilatının sədri Arzu Abdullayev ötən ildə universitetin qazandığı uğurları diqqətə çatdırıb.

Universitetin tanıtım videoçarxı nümayiş olunub.



Qafqazın ən böyük təhsil səhifəsi olan Azərbaycan Universitetləri feysbuk sosial şəbəkəsinin rəhbəri Zöhrab Süleyman qeyd edib ki, 2011-ci ildən yaradılan səhifə 11 ildir ki, təhsil sahəsi üzrə yenilikləri cəmiyyətə çatdırır. Vurğulanıb ki, 2013-cü ildən bəri ildə iki dəfə olmaqla keçirilən müsabiqə ali təhsil ocaqları arasında sağlam rəqabət mühitinin formalaşmasına öz müsbət təsirini göstərir. Qeyd edilib ki, öz unikallığı ilə seçilən sorğu bəyanmələrlə yanaşı universitet və rektor haqda yazılan müsbət rəylərlə digərlərindən fərqlənib. Vurğulanıb ki, 405 mindən çox izləyicisi olan səhifədə 40 faiz səs çoxluğu ilə Elbrus İsayev qalib seçilib.

Ali təhsil ocağının rektoru Elbrus İsayev qazandığı uğuru universitetin nailiyyəti, ona verilən dəyər kimi səciyyələndirib. Qeyd edilib ki, təhsil yeniliklərini ictimailəşdirmək baxımından sosial medianın fəaliyyəti təqdirəlayiqdir. Rektor operativ informasiyanın çatdırılmasında sosial şəbəkələrin müsbət fəaliyyətini vurğulayıb. Diqqətə çatdırılıb ki, muxtar respublikada elmə, təhsilə göstərilən dövlət qayğısının nəticəsidir ki, ali təhsil ocağı müxtəlif yeniliklərə imza atıb, beynəlxalq əməkdaşlıqda uğurlar əldə edib, ikili diplom layihələrinə start verib. Bildirilib ki, rəhbərlik etdiyi ali təhsil ocağı dünyanun nüfuzlu universitetlərinin reytinq cədvəlində yer alıb. Universitetdə Texnologiya, Atıcılıq mərkəzi, Robototexnika, Kriminalistika və məhkəmə ekspertizası laboratoriyaları, Əczaçılıq Simulyasiya Kabinəsi, Yaşıl Əczaxananın qurulmasının tələbələrin keçdikləri nəzəri biliklərin daha dərin mənimsənilməsində əhəmiyyətli dərəcədə rol oynadığı diqqətə çatdırılıb. Rektor Azərbaycan Ali Təhsil məkanında ilk olaraq universitetdə qurulan Texnopark layihəsindən danışıb. Vurğulanıb ki, ötən ildə də professor-müəllim heyəti nüfuzlu elmi jurnallarda məqalələr nəşr etdirməklə öz elmi potensiallarını nümayiş etdiriblər. Rektor ali təhsil ocağında əcnəbi tələbələrin sayında yüksək artım olduğunu qeyd edərək diqqətə çatdırıb ki, universitetdə 10-a yaxın ölkədən 1500-ə yaxın tələbə təhsil alır. Bildirilib ki, Universitet Televiziyasının müstəqil kanalda muxtar respublika ərazisində yayımına başlanılması "Jurnalistika" ixtisasında dərs deyən müəllim və tələbələrin bu sahə üzrə məsuliyyətini daha da artırmaqla bərabər təcrübi bazasının yüksəldilməsinə də öz töhfəsini verib. Qeyd edilib ki, universitetin tərkibində Musiqi Kollecinin yaradılması birgə konsertlərin keçirilməsinə və incəsənət sahəsində təcrübə mübadiləsinə şərait yaradıb. Rektor gündəlik qayğı ilə əhatə olunan universitetin gələcək hədəflərini diqqətə çatdıraraq göstərilən etimadı doğrultmaq naminə hər kəsi daha məsuldar və məsuliyyətli işləməyə səsləyib.



"Azərbaycan Universitetləri" feysbuk sosial şəbəkəsinin rəhbəri Zöhrab Süleyman ilin ən yaxşı universitetinin ən yaxşı rektoru plaketini Elbrus İsayevə təqdim edib.

Tədbirdə çıxış edənlər rektoru təbrik edib, ona peşəkar və yorulmaz fəaliyyətində uğurlar arzulayıblar.

Qeyd edək ki, Elbrus İsayev hər üç - Feysbuk, İnstaqram, Teleqram sosial şəbəkə hesablarında qalib olub. Məlumat üçün onu da bildirək ki, Azərbaycan Universitetlərinin Teleqram kanalı Azərbaycan Teleqram seqmentində təhsil kateqoriyası üzrə liderdir. Səhifə müəllim və tələbələrin bir sözlə, bütün təhsil sferasının uğurları və problemlərinin ictimailəşdirilməsi və həlli üzrə aktiv fəaliyyət göstərir.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***



## "NAXÇIVAN MUXTAR RESPUBLİKASININ AQRAR İNKİŞAFI" ADLI KİTABIN TƏQDİMAT MƏRASİMİ KEÇİRİLİB

Ali təhsil ocağında Azərbaycan Respublikası Mərkəzi Bankı Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri Elçin Əliyevin "Naxçıvan Muxtar Respublikasının aqrar inkişafı" adlı kitabının təqdimatı keçirilib. Tədbiri giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev qeyd edib ki, ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olan aqrar sahə ilə yanaşı hər bir sahədə əldə edilmiş inkişaf 30 ilə yaxın bir dövrdə muxtar respublika rəhbəri tərəfindən ulu öndər siyasətinə uyğun həyata keçirilən uğurlu siyasətin, vaxtında və düzgün verilən düşünülmüş qərarların təzahürüdür. Qeyd edilib ki, universitetimiz muxtar respublikada aqrar sahə üzrə kadr hazırlayan yeganə təhsil ocaqlarından biridir. Rektor diqqətə çatdırıb ki, təqdimatı keçirilən kitab da bu sahə üzrə təhsil alan tələbələr və tədqiqatçılar üçün bələdçi rolunu oynaya bilər.

İqtisadiyyat kafedrasının müdiri, iqtisad üzrə fəlsəfə doktoru, dosent Ceyhun Mahmudov çıxışı zamanı bildirib ki, muxtar respublikada həyata keçirilən sosial-iqtisadi siyasətin prioritet istiqamətlərindən biri əhalinin keyfiyyətli və təmiz ərzaq məhsulları ilə təmin olunmasıdır. Məhz bu baxımdan da kitabda qeyd olunan kənd təsərrüfatı məhsullarının istehsalı, taxılçılıq, toxumçuluq və.s kimi mövzular xüsusi əhəmiyyət kəsb edir. Bu istiqamətdə görülən işlər ərzaq təhlükəsizliyinin gücləndirilməsi üçün vacib əhəmiyyətə malikdir. Vurğulanıb ki, aqrar sahə ilə bağlı bütün mövzuların bir kitabda birləşdirilməsi tədqiqatçılar üçün bir informasiya bazası, bir dayaq nöqtəsi hesab edilə bilər.

Mühasibat uçotu və maliyyə kafedrasının professoru, iqtisad üzrə elmlər doktoru Teymur Abbasov qeyd edib ki, müəllif kitabda kompleks islahatların aparılması, aqrar təhlükəsizliyin təmin edilməsi, məhsulların ixrac olunması statistikası ilə yanaşı heyvandarlığın müxtəlif sahələrindən quşçuluq, arıçılıq, balıqçılıq və.s kimi mövzular haqqında ətraflı məlumat verib. Diqqətə çatdırılıb ki, kitab Naxçıvanda istehsal potensialının yüksəldilməsi və ərzaq təhlükəsizliyi baxımından mühüm əhəmiyyətə malikdir.




Dünya iqtisadiyyatı kafedrasının dosenti, iqtisad üzrə fəlsəfə doktoru Həsən Məmmədov vurğulayıb ki, müəllif kitabda Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatının inkişafı ilə bağlı qəbul edilmiş hüquqi sənədləri, aqrar sahənin bütün istiqamətlərini ayrıca bölmə şəklində təhlil edərək oxucuların diqqətinə çatdırıb.

Daha sonra İqtisadiyyatın tənzimlənməsi ixtisaslaşması üzrə II kurs magistrant Mərhəmət Bayramov kitabın xüsusən tələbələr üçün faydalı bir mənbə olacağını qeyd edib.

Müəllif kitabın ərsəyə gəlməsində, nəşrində və təqdimatında əməyi keçən hər kəsə dərin minnətdarlığını bildirib.

**Məmmədbağır Dünyamalıyev**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI BASKETBOL FEDERASİYASININ HESABAT YIĞINCAĞI KEÇİRİLİB

Naxçıvan Muxtar Respublikası Basketbol Federasiyasının 2021-ci ilin yekunu və 2022-ci ildə görüləcək işlərə dair hesabat yığıncağı keçirilib. Naxçıvan Muxtar Respublikası Basketbol Federasiyasının sədri Elbrus İsayev qeyd edib ki, ölkəmizdə digər sahələrin uğurlu inkişafı ilə yanaşı, basketbol idman növünə də xüsusi önəm verilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun fevralın 14-də "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncamı diqqətə çatdıran Elbrus İsayev federasiyanın ötən il ərzində görülən işlər haqda məlumat verib. Vurğulanıb ki, 27 aprel 2021-ci il tarixdə açıq havada universitet tələbələrinin "XV Universiadası"nın proqramına daxil olan basketbol yarışları keçirilib. Yarışlarda 33-ü əcnəbi olmaqla 110 tələbə iştirak edib. Naxçıvan şəhərində fəaliyyət göstərən 11 tam orta məktəbin komandaları arasında, "15 İyun - Milli Qurtuluş Günü"nə həsr edilmiş, "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında Naxçıvan şəhər tam orta məktəblərinin 9-11-ci sinif şagirdlərindən ibarət oğlan komandaları arasında Naxçıvan şəhər birinciliyi keçirilib.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə birlikdə muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələri tələbələrinin muxtar respublika birinciliyi, ümumtəhsil məktəblərinin oğlan komandaları arasında basketbol üzrə muxtar respublika birinciliyi keçirilib. Naxçıvan şəhərini və muxtar respublikanın rayonlarını təmsil edən 8 komandanın iştirak etdiyi yarışlarda 80 idmançı iştirak edib.

Elbrus İsayev qeyd edib ki, basketbol idman növü üzrə məşqlər keçirilməklə bərabər 19 aprel 2021-ci il tarixdə muxtar respublika basketbol yarışlarını idarə etmək üçün ictimai hakimlər və məşqçilər hazırlamaq məqsədilə 15 nəfərin iştirakı ilə iki həftəlik seminar təşkil edilib. Respublika dərəcəli hakim Füzuli Salmanovun rəhbərliyi ilə aparılan seminarda hazırlanan hakimlər sonrakı dövrlərdə təşkil olunmuş yarışları idarə edib. Bildirilib ki, müasir iş prinsiplərinin və innovativ yeniliklərin tətbiqini təmin etmək məqsədilə ötən il Federasiyanın internet saytının təqdimatı olub.

Vurğulanıb ki, hazırda muxtar respublikanın ümumtəhsil məktəblərində və uşaq idman məktəblərində 42 basketbol klubu fəaliyyət göstərir ki, bu klublarda 536 şagird bu idman növü ilə məşğul olur. Naxçıvan Dövlət Universitetində isə 47 nəfər olmaqla 3 basketbol qrupu fəaliyyət göstərir.

Federasiyanın sədri həmçinin qeyd edib ki, Naxçıvan Dövlət Universitetinin "Məşqçilik" ixtisasında basketbol seçmə ixtisas fənni kimi tədris olunur. Bu fənnin tədrisinin keyfiyyətini yüksəltmək məqsədi ilə basketbola aid dərs vəsaiti və proqramlar hazırlanıb. Vurğulanıb ki, 2002-ci ildə yaradılan Basketbol Federasiyası idmanın bu növünün inkişaf etdirilməsini, yeniyetmə və gənclərin idmana cəlb olunmasını, idman yarışlarının kütləviliyinin artırılmasını daim diqqətdə saxlamalıdır. Elbrus İsayev bildirib ki, gələcəkdə də Basketbol federasiyası Gənclər və İdman Nazirliyi ilə birgə işini günün tələbləri səviyyəsində qurmalı, eyni zamanda komandaların tərkibinin gücləndirilməsi istiqamətində ardıcıl işlər görməli və bu idman növünün kütləvi hal alması üçün bütün zəruri tədbirlər həyata keçirilməlidir.



Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri Ramil Hacı çıxış edərək qeyd edib ki, müasir dövrdə muxtar respublikada idmanın inkişafı üçün dövlət səviyyəsində mühüm tədbirlər həyata keçirilib, gənclər və idman siyasəti yeni mərhələyə qədəm qoyub. Bildirilib ki, 2021-ci il ərzində nazirlik tərəfindən bədən tərbiyəsi və idman sahəsi üzrə 189 tədbir keçirilib. Ötən il muxtar respublika idmançıları üçün yaddaqalan və əlamətdar olub. Belə ki, ölkə və dünya səviyyəli yarışlarda qazanılan 27 qızıl, 32 gümüş və 23 bürünc medal əyarına görə Naxçıvan idmanı tarixində ən yüksək göstəricidir. Bütün bunlar Naxçıvanda idman siyasətinin düşünülmüş şəkildə aparılmasının bariz nümunəsidir. Vurğulanıb ki, Basketbol Federasiyası öz işini 2021-ci ildə verilmiş tapşırıqlara əsasən qurub. Naxçıvan şəhəri və bölgələrdə federasiyanın bölmə və qrupları fəaliyyət göstərir ki, həmin bölmələrdə ümumilikdə 12 qrup üzrə 148 yeniyetmə və gənc idmanla məşğul olur. Ramil Hacı diqqətə çatdırıb ki, nazirliklə federasiyanın birgə və məqsədyönlü fəaliyyətinin nəticəsi olaraq dövlət idman siyasəti çərçivəsində qarşıya qoyulan tələb və tapşırıqlar yerinə yetiriləcək, bu sahənin inkişafı yolunda yeni uğurlar əldə olunacaq.

Yığıncağa yekun vuran Federasiyanın sədri Elbrus İsayev hakimlik təcrübələrinin artırılması, hakimlərin Azərbaycan Basketbol Federasiyası tərəfindən keçirilən seminar və kurslara göndərilməsi, basketbol üzrə yüksək səviyyəli məşqçilərin muxtar respublikaya dəvət edilməsi, onların yerli məşqçilərlə təlimlər, treninqlər, keçirilməsinin təmin edilməsi, basketbola aid tədris vəsaitlərinin hazırlanmasına diqqətin artırılması ilə bağlı konkret tapşırıqları diqqətə çatdırıb.

Sonda muxtar respublika məktəblərinin basketbol üzrə məşqçiləri fəxri fərman və hədiyyə ilə mükafatlandırılıb.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

## PAYIZ SEMESTRİNİN İMTAHAN SESSİYASI UĞURLA DAVAM EDİR

Ali təhsil ocağında 2021-2022-ci il payız semestrində imtahanlar gün ərzində 90-110 olmaqla yazılı, şifahi və test üsulu ilə həyata keçirilib.

1771 sayda keçirilməsi nəzərdə tutulan imtahanların 1575-i keçirilib və 25596 sayda tələbənin iştirakı proqnozlaşdırılan imtahanlarda bu günədək 22956 tələbə imtahan verib. Tələbələr elektron qaydada təşkil edilən imtahanlardan savayı ənənəvi-yazılı və şifahi qaydada da imtahan veriblər. Qeyd edək ki, hər gün keçirilən yazılı imtahanlar üçün də xüsusi nəzarət sistemi tətbiq olunan otaq müəyyənləşdirilib. Bundan başqa xüsusi qabiliyyət tələb edən ixtisaslarda imtahanların şifahi qaydada keçirilməsi nəzərdə tutulub. Şifahi imtahanlar müvafiq kafedralar tərəfindən razılaşdırılmış qaydada fakültə daxilində keçirilib. Universitetin rektoru Elbrus İsayev keçirilən imtahanların gedişi prosesi ilə tanış olub, çirilib. Kazus adalan bu imtahanlar "Hüquqşünaslıq" ixtisasının tələbələri üçün nəzərdə tutulub. Tələbələrə cinayət və mülki sahələr üzrə kazus xarakterli suallar hazırlanıb, tələbələrin 3 saat ərzində qanunun məzmununu açmaq və onun izahını vermək, kazusları həll etməklə qoyulmuş məsələlərə düzgün qiymət vermək bacarıqlarına xüsusi diqqət yetirilib.

Ali təhsil ocağının artıq bir neçə fakültəsində uğurla həyata keçirilən elektron jurnalın tətbiqi sayəsində tələbənin müvəffəqiyyət və keyfiyyət faizləri avtomatik olaraq sistemə inteqrasiya olunur və bu da imtahan nəticələrinin hesablanmasını sürətləndirir. Tələbələr universitetin elektron səhifəsində yerləşdirilən linkdən itifadə etməklə imtahan nəticələrini öyrənməklə bərabər universitetin saytında e-cədvəl bölməsinə daxil olmaqla dərs, kollokvium, imtahan cədvəlləri, sualları və imtahan nəticələri barədə məlumat topla-



tələbələrə uğurlar arzulayıb. İmtahanların gedişi ilə bağlı tələbələrin arzu və təkliflərini öyrənib.

Elektron imtahanlar bu semestr 13 elektron və 26 yazılı olmaqla kamera ilə təchiz edilmiş otaqlarda aparılıb. Bu ilki imtahan prosesində ali təhsil ocağının magistrantları da imtahanlarda nəzarətçi qismində çıxış ediblər.

İmtahanlara ümumi nəzarət etmək üçün isə 9 nəfərdən ibarət imtahan qərargahı yaradılıb. İmtahanların gedişində ciddi texniki problemlərə, xoşagəlməz hallara rast gəlinərsə, tələbənin şikayətinə baxılması və obyektiv həlli məqsədilə apellyasiya komissiyası da yaradılıb.

Qeyd edək ki, bu günədək elektron test üsulu ilə keçirilən imtahanlar obyektivlik və şəffaflığın gözlənilməsi, tələbələrin öz biliklərini operativ şəkildə ortaya qoyması, obyektiv qiymətləndirmə baxımından böyük üstünlükləri ilə özünü doğruldub. İmtahan zallarında quraşdırılan veb kameraları şəffaflığın ən bariz nümunəsi hesab oluna bilər. Tələbələr müəyyən olunmuş vaxt ərzində kompüterin köməyi ilə 50 sualı cavablandırır, nəzarətçilər tələbənin imtahanı başlamasını və bitirdiyini təsdiqlədikdən sonra tələbə imtahan nəticələri ilə bağlı dərhal məlumatı əldə edə bilir. Hər test sualı üçün 1 bal, yazılı imtahan üçün 10 ballıq qiymətləndirilmə tətbiq edilir. Yazılı imtahanlarda isə tələbə hər biletdə 5 sual cavablandırmaqla maksimum 50 balla qiymətləndirilir. Məlumat üçün onu da bildirək ki, bu il ilk dəfə olaraq açıq tipli imtahan keya bilirlər. Elektron imtahanlarda hər müəllim minimum 700 sayda test sualı verib. 1000 və daha artıq olan imtahan sualları tələbələr üçün variantlı şəkildə əvvəcədən açıqlanıb. Yazılı suallar isə tədris ilinin əvvəlindən LMS sisteminə yüklənib.

Eyni zamanda səhifədə yaradılan rektora müraciət bölməsinə daxil olan hər bir tələbənin imtahanlarla bağlı sual, təklif və şikayətlərini birbaşa rektora ünvanlaması yaradılan obyektiv şəraitin ideal nümunəsi sayıla bilər.

Qeyd edək ki, imtahanların ən böyük üstünlüyü isə ondan ibarətdir ki, ilk dəfə olaraq payız semestrinin imtahan sessiyasından əvvəl tələbələrin imtahana qədərki balları şəxsi kabinetlərinə yüklənilib, universitetdə tətbiq olunan elektron jurnal və imtahan sisteminin imkanları genişləndirilib, semestrin əvvəlində imtahanların aparılması ilə bağlı tələbələrə əvvəlcədən məlumatlar verilib və cari qiymətləndirmələr buna uyğun aparılıb. Həmçinin, tələbə aldığı qiyməti operativ şəkildə məhz imtahan verdiyi gün şəxsi kabinetinə daxil olmaqla öyrənir. İmtahanlar bitdikdən sonra tələbənin yekun imtahan balı e–cədvəl mobil tətbiqi vasitəsilə şəxsi kabinetinə ötürülür. Xatırladaq ki, bu il ali təhsil ocağının İnformasiya-kommunikasiya Texnologiyaları və Elektron Təhsil şöbəsi tərəfindən hazırlanan "E-cədvəl" mobil tətbiqi Elm, Təhsil və İnnovasiyalar tətbiqlər və utilitlər nominasiyası üzrə "NETTY 2021" Azərbaycanın milli internet - mükafatına layiq görülüb.




## "ƏNƏNƏVİ İNCƏSƏNƏT VƏ SƏNƏTKARLIQ NÜMUNƏLƏRİ" SƏRGİSİ KEÇİRİLİB

İki gün davam edən sərginin açılış mərasimində çıxış edən universitetin rektoru Elbrus İsayev qonaqları salamlayaraq sərginin işinə uğurlar arzulayıb. Rektor universitetin İncəsənət, Memarlıq və mühəndislik, Pedaqoji fakültələrinin iştirakı ilə keçirilən tədbirdə ümumilikdə 1000-dən çox sənət nümunəsinin sərgiləndiyini diqqətə çatdırıb. Rektor qardaş ölkənin universiteti ilə birgə keçirilən sərginin mühüm əhəmiyyətini qeyd edib. Bu cür görüşlərin gələcək təcrübə mübadiləsinə mühüm töhfə verəcəyinə əminlik ifadə olunub.

Türkiyənin Naxçıvandakı baş konsulu Mehmet Emin Kiraz Türkiyə və Azərbaycan arasında bütün sahələrdə olduğu kimi təhsil sferasında da qazanılan uğurlardan bəhs edib.

İğdır Universitetinin rektoru Mehmet Hakkı Alma 2008-ci ildə yaradılan ali təhsil ocağı haqda məlumat verib. Bildirilib ki, ilk dəfə Naxçıvanda keçirilən sərginin sonra İğdırda, İranda, Gürcüstanda keçirilməsi planlaşdırılıb. Rektor bir çox sahələrdə Naxçıvan Dövlət Universiteti ilə birgə iş birliyinin əhəmiyyətindən danışıb.

Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov maddi-mədəniyyət abidələrini qorumaq, yaşatmaq və gələcək nəsillərə çatdırmaq məqsədilə təşkil edilən sərgini yüksək qiymətləndirib. Qeyd edilib ki, muxtar respublikada yaradılan şəraitin nəticəsidir ki, şagirdlər müasirliklə yanaşı qədim adət-ənənələrimizə hörmət ruhunda tərbiyə olunurlar. Nazir şagirdlərin asudə vaxtlarının səmərəli təşkili istiqamətində innovativ dərnəklərin əhəmiyyətini xüsusilə qeyd edib.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru Azad Novruzov, Naxçıvan Universitetinin rektoru Nurlana Əliyeva təşkilatçılara minnətdarlıq edib və sərginin işinə uğurlar arzulayıblar.

Naxçıvan Muxtar Respublikasının Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva gələcəkdə bu istiqamətdə Rəssamlar Birliyində də sərgilərin keçirilməsi barədə öz təkliflərini çatdırıb.

Sonra sərgiyə baxış olub.

Sərgidə universitetin İncəsənət fakültəsi rəssamlıq və heykəltaraşlıq nümunələri, ağac üzərində rəsmlər, dekorativ tətbiqi sənət növləri, zərgərlik məmulatları, təbii daşlardan hazırlanmış aksesuarlarla iştirak edib.

Memarlıq və mühəndislik fakültəsi ötən ilin ən uğurlu və möhtəşəm layihəsi olan Texnopark, eskiz layihələri, ənənəvi və kompüter qrafikası ilə hazırlanan maketlər təqdim edib.

Sərgidə Pedaqoji fakültənin kollektivi dekorativ tətbiqi sənət nümunələri, metal və ağacdan hazırlanmış əl işləri, divar hanasında toxunmuş müxtəlif ölçülü xalçalar, dekorativ qurama güllər, sabun və şam nümunələri ilə təqdim ediblər. Sərgidə həmçinin qonaqlara fakültənin qış tədarükü üçün hazırlanmış turşu və mürəbbələri, dərman bitkiləri, Naxçıvan mətbəxinə aid ədviyyatlar, quru meyvə və çərəz də təqdim olunub.

Sərgidə qardaş ölkədən gələn sənət sahibləri də maraqlı əl işlərini nümayiş etdiriblər. Dəridən hazırlanan müxtəlif çantalar, keçədən hazırlanmış tablolar, şüşə boruları əritməklə hazırlanan muncuqlar və suvenirlər tamaşaçıların marağına səbəb olub.

Tədbir Pedaqoji fakültənin müəllim və tələbələrinin hazırladığı şirniyyat və çay süfrəsi ətrafında davam edib. Universitetin İncəsənət fakültəsi və Musiqi kolleci tələbələrinin ifasında musiqi və rəqs nömrələri tədbirə xoş ovqat bəxş edib.

Sərginin ikinci günündə sərgilənən əl işlərinin hazırlanma texnikası və texnologiyası əyani sürətdə göstərilib.

Sərgidə təşkilatçılar İğdır Universiteti tərəfindən təşəkkürnamə ilə təltif ediliblər.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

## NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ VƏ TÜRKİYƏNİN YILDIZ TEXNİKİ UNİVERSİTETİ ARASINDA BİOTEXNOLOGİYA VƏ TƏTBİQ SAHƏLƏRİ MÖVZUSUNDA VEBİNAR KEÇİRİLİB

Vebinarı giriş sözü ilə açan univesitetin Tədris və tərbiyə işləri üzrə prorektoru Rafiq Rəhimov iki ali təhsil ocağı arasındakı beynəlxalq əməkdaşlıqdan söz açıb. Qeyd olunub ki, ötən il universitetin bir qrup heyətinin qardaş Türkiyəyə səfəri çərçivəsində Yıldız Texniki Universiteti ilə təhsil sahəsində bir sıra müqavilələr imzalanıb. Prorektor iki universitet arasında mütəmadi olaraq müxtəlif sahələr üzrə onlayn görüşlərin keçirildiyini vurğulayaraq bu kimi tədbirlərin qarşılıqlı təcrübə mübadiləsinin aparılması baxımından əhəmiyyətini qeyd edib. Rafiq Rəhimov eyni zamanda ali təhsil ocağında biotexnologiya və nanotexnologiyalar sahəsində əldə olunan yenilikləri vebinar iştirakçılarının diqqətinə çatdırıb.



Yıldız Texniki Universitetinin Biomühəndislik şöbəsinin professoru Dilek Balık iştirakçıları salamlayaraq görüşdən məmnunluğunu ifadə edib. Dilek Balık araşdırma universiteti statusu alaraq texnologiya sahəsində Türkiyədəki qabaqcıl universitetlərdən biri kimi fəaliyyət göstərən Yıldız Texniki Universiteti haqqında ətraflı məlumat verib. Professor biotexnologiya nədir, onun üç əsas dövrü, biotexnologiyanın tarixində önəmli məqamlar, onun əsas tətbiq sahələri, sağlamlıq biotexnologiyası, nanotexnoloji yanaşmalarla antibiotiklərin effektivliyinin artırılması mövzularında danışıb. Eyni zamanda Yıldız Texniki Universitetində sağlamlıq biotexnologiyası sahəsində həyata keçirilən işlər, bioinformatika, molekulyar biologiya və genetika, biotibbi cihaz və süni intellekt texnologiyaları, sənaye biotexnologiyası, onun istehsal müddəti, kənd təsərrüfatı biotexnologiyası, ekoloji, dəniz və qida biotexnologiyaları barədə geniş məlumat verilib.

Sonra iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Sonda professora universitetin elektron formada təşəkkürnaməsi təqdim edilib.

**Fəxriyyə Səyyadova**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

## AZƏRBAYCAN TƏHSİL MƏKANINDA İLK DƏFƏ OLARAQ NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ ELEKTRON ARXİV MƏLUMAT SİSTEMİ YARADILIB



Ali təhsil ocağı növbəti ilklərdən birinə imza atıb. Bu münasibətlə keçirilən təqdimat mərasimini giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev qeyd edib ki, elektron arxiv sistemi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il martın 14-də "Naxçıvan Muxtar Respublikasında arxiv işinin inkişafına dair 2020-2025-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncamı çərçivəsində ərsəyə gətirilib. Bildirilib ki, son illərdə universitetdə elektronlaşma böyük miqyasda həyata keçirilib, belə ki, elektron kitabxana, elektron təhsil, elektron sənəd dövriyyəsi yaradılıb ki, bu da ümumi inkişafa müsbət təsir edib.

Sonra İnformasiya - kommunikasiya texnologiyaları və elektron təhsil şöbəsinin müdiri Hüseyn Əsgərli adıçəkilən sistem haqqında məlumat verib. Qeyd olunub ki, elektron arxiv sistemi ümumilikdə "Ana səhifə", "Fondlar", "Siyahı", "Sərlövhələr" və "Axtarış" adlı 5 bölmədən ibarətdir. "Ana səhifə" bölməsində mühafizəxanalar, "Fondlar" bölməsində əlavə edilmiş fondların adı, ilk və son tarixi, aid olduğu mühafizəxana, "Siyahılar" bölməsində siyahının adı, saxlama vahidlərinin ilk və son tarixi, sayı, saxlama vahidlərinin stellaj nömrəsi və aid olduğu fond, "Sərlövhələr" bölməsində saxlama vahidinin nömrəsi, sərlövhəsi, ilk və son tarixi, vərəqlərin miqdarı və aid olduğu siyahı yerləşir. "Axtarış" bölməsində isə axtarış parametrlərini dolduraraq uyğun nəticələr çıxarılır.

Sonda Kadr və ümumi işlər şöbəsinin baş arxivçisi Xədicə Məmmədova qeyd edib ki, universitetin 1967-ci ildən 2009-cu ilə qədər olan arxivdəki bütün sənədləri 8 noyabr 2017-ci il tarixdən, 16 dekabr 2021-ci il tarixədək Naxçıvan Dövlət Arxivinə təhvil verilib. Diqqətə çatdırılıb ki, elektron arxiv yalnız məlumatların qorunub saxlanması üçün deyil, eyni zamanda çox sıx müraciət olunan informasiya məlumat bazasını özündə əks etdirir. Bildirilib ki, universitetin arxivində 2010-cu ildən 2021-ci ilə qədər sənədlər qorunub mühafizə olunur. Vurğulanıb ki, rəqəmsal məlumatların idarəolunması, uzun müddət qorunması və saxlanması, istifadəsi və paylaşımı üçün universitet qabaqlayıcı tədbirlər görüb. Bu səbəbdən də elektron arxivin universitet səviyyəsində istifadəsi və əhəmiyyəti artıb.

Məlumat üçün onu da bildirək ki, universitetin arxivi 1967-ci ildən fəaliyyət göstərir. Arxivin əsas məqsədi universitetin təlim - tədris işləri sahəsində fəaliyyətini əks etdirən sənədləri vaxtında təhvil alıb, onların xronoloji qaydada sistemləşdirilməsini və qorunmasını təmin etməkdən ibarətdir.

**Məmmədbağır Dünyamalıyev**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

## UNİVERSİTETİN MÜƏLLİMİNİN ELMİ MƏQALƏSİ VARŞAVADA NƏŞR OLUNUB

Naxçıvan Dövlət Universiteti Təsviri incəsənət kafedrasının baş müəllimi Siddiqə Hacıyevanın “Xalq rəssamı Cəlil Hüseynovun yaradıcılığında monumental rəngkarlıq əsərləri” adlı elmi məqaləsi Polşanın Varşava şəhərində dövri elmi nəşrlərin daxil olduğu beynəlxalq xülasələndirmə və indeksləmə sisteminə daxil olan “Copernicus” indeksli jurnalda dərc olunub.




Məqalədə xalq rəssamı Cəlil Hüseynovun yaradıcılığında monumental rəngkarlıq əsərlərinin bədii xüsusiyyətləri haqqında məlumat verilib. Əsərlərindəki əsas bədii xüsusiyyətlərinin meydana çıxarılmasına xidmət edən rənglərin psixoloji xarakteri araşdırılıb, bu sahədə fərdi yaradıcılıq xüsusiyyətləri müəyyənləşdirilib. Məqalədə, həmçinin qeyd edilib ki, monumental rəngkarlıq əsərlərində rəng çalarlarının harmonik ifadəsini böyük ustalıqla yaratmış rəssamın əsərləri yüksək bədii estetika ilə yanaşı mövzu rəngarəngliyinə və lakonik bədii ifadəliyə malikdir.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

## “TURİZM “ŞƏRQ QAPISI” QƏZETİNİN SƏHİFƏLƏRİNDƏ” VƏ “BURA NAXÇIVANDIR” ADLI KİTABLARIN TƏQDİMATI OLUB



Naxçıvan Dövlət Universitetində İqtisad üzrə fəlsəfə doktoru, dosent Əli Cabbarovun “Turizm “Şərq qapısı” qəzetinin səhifələrində” və “Bura Naxçıvandır” adlı kitablarının təqdimatı keçirilib. Təqdimatı giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev kitabları Naxçıvan turizm və jurnalistika məktəbinə mühüm töhfə olaraq dəyərləndirib. Qeyd edilib ki, nəşr həm də 100 illik yubileyi qeyd olunan “Şərq qapısı”nın turizm sahəsindəki yığcam hesabatı da sayıla bilər. Rektor müəllifin ali təhsil ocağında müəllim kimi fəaliyyətini də yüksək qiymətləndirərək kitabı bu sahə üzrə təhsil alan Turizm və Jurnalistika ixtisasında təhsil alan tələbələr üçün qiymətli mənbə hesab edib. Rektor yeni nəşrin




bu əhəmiyyəti nəzərə alınaraq Universitet Elmi Şurasının 28 oktyabr 2021-ci il tarixli qərarı ilə dərs vəsaiti kimi təsdiq olunduğunu bildirib.

AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Vəli Baxşəliyev bildirib ki, turizmin inkişafı geniş miqyasda onun təbliğindən asılıdır. Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikasında turizmin təbliğatında “Şərq qapısı” qəzetinin böyük rolu olub. Tarixi abidələrin turizmdə rolundan bəhs edən Vəli Baxşəliyev vurğulayıb ki, Əli Cabbarov oxucunu yormadan bu kitablarda turizm haqqında geniş məlumat verib.

Sonra Bələdiyyə və turizm kafedrasının müdiri Flora Kərimova çıxışı zamanı qeyd edib ki, “Turizm “Şərq qapısı” qəzetinin səhifələrində” adlı kitabda qəzetin 1940-cı illərdən başlayaraq bu gün üçün əhəmiyyət daşıyan turizm, tarix, mədəniyyət mövzusundakı yazıları və mühüm siyasi əhəmiyyətli hadisələr haqqındakı rəsmi xəbərlər barədə məlumatlar öz əksini tapıb.

Naxçıvan Muxtar Respublikasının əməkdar jurnalisti, “Şərq qapısı” qəzetinin İqtisadiyyat və təhlil şöbəsinin müdiri Səbuhi Həsənov müəllifin gərgin və məhsuldar jurnalistlik fəaliyyətinin bəhrəsi olan kitabların turizm sahəsinə xüsusi dəyər qatacağına əminliyini ifadə edib, materialların, janr, mövzu etibarilə qruplaşdırılmasını təqdirəlayiq hesab edib. Qeyd edilib ki, kitab gələcək turizm və jurnalistika tələbələri həmçinin digər oxucular üçün mənbəşünaslıq yolunda uğurlu bir istiqamət ola bilər.

Tədbirdə çıxış edənlər son illər ölkəmizdə turizmin inkişafı naminə görülən işlərdən danışıb və turizm sahəsinə yeni töhfələr verəcək bu nəşrlərin çap edilməsini yüksək qiymətləndiriblər.




Sonda Əli Cabbarov çıxış edərək tədbirdə iştirak edənlərə xoş sözlərinə və təbriklərinə görə minnətdarlığını bildirib.

**Məmmədbağır Dünyamalıyev**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

## NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ ƏCNƏBİ TƏLƏBƏLƏR ARASINDA “AZƏRBAYCANI TANIYAQ” ADLI İNTELLEKTUAL OYUN KEÇİRİLİB

Ali təhsil ocağında Azərbaycan dilini, tarixini, mədəniyyətini, coğrafiyasını tarixi abidələrini əcnəbi tələbələrə tanıtmaq məqsədilə “Azərbaycanı tanıyaq” adlı intellektual oyun keçirilib.



Universitetin ümumi işlər üzrə prorektoru Xəyal Camalov çıxışı zamanı qeyd edib ki, sözügedən intellektual oyunun keçirilməsində məqsəd əcnəbi tələbələri tariximiz, mədəniyyətimiz haqqında məlumatlandırmaq həmçinin bu sahədə onların biliklərini sınamaqdır.

Daha sonra universitetin xarici tələbələrlə iş üzrə dekanı Ceyran Quliyeva tələbələrə uğurlar arzulayıb.

Sonra qaydalar haqda məlumat verildikdən sonra oyun başlayıb.

Məlumat üçün bildirək ki, yarışlar 3 mərhələ üzrə davam edib. I mərhələdə hazırlıq kursunun tələbələrindən ibarət 15 komanda seçim turunda iştirak edib. “Qarabağ” komandası final mərhələsinə keçmə haqqı qazanıb. Oyunların II mərhələsində universitetin Memarlıq, İncəsənət, Tibb, Beynəlxalq fakültələrinin əcnəbi tələbələri arasında seçim turu keçirilib. 5 komandanın mübarizə apardığı final mərhələsində hazırlıq kursunun tələbələrindən ibarət “Qarabağ” komandası I, Tibb fakültəsinin “Xəzər” komandası II, İncəsənət fakültəsinin “Koroğlu” komandası isə III yerə layiq görülüb.

Sonda qalib komandalara diplomlar təqdim olunub.

**Məmmədbağır Dünyamalıyev**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

## "TAP-MAT" İNTELLEKTUAL ŞAHMAT OYUNU

Tələbə Gənclər Təşkilatının təşəbbüsü ilə “Tap-mat” intellektual şahmat oyunu keçirilib. Tədbiri giriş sözü ilə açan Tələbə Gənclər Təşkilatının sədri Əziz Qasımov intellektual oyunların gənclər üçün əhəmiyyətindən danışıb. Qeyd edilib ki, universitetin tələbə təşkilatları bu istiqamətdə mütəmadi olaraq çalışır və intellektual yarışların layihə müəllifləri də məhz özləri olurlar.



Sonra yarışa start verilib. İki mərhələdən ibarət olan intellektual oyunun I mərhələsində suallar çətinlik dərəcəsinə görə 3 tura ayrılıb. İştirakçılar hər düzgün cavaba görə müvafiq olaraq birinci turda 1, ikinci turda 2, üçüncü turda isə 3 xal qazanıblar. Beləliklə, birinci mərhələdə ilk 4 yeri tutmuş iştirakçı yarımfinala vəsiqə qazanıb.

Növbəti mərhələdə şahmat oyunu üzrə yarışan iştirakçılar I mərhələdə qazanılan xallar əsasında fiqurlar alaraq şahmat taxtasına yerləşdiriblər.

Final qarşılaşmasında İngilis dili və tərcümə ixtisası üzrə IV kurs tələbəsi Ramil Abdullayev qalib olub. Hüquqşünaslıq ixtisası üzrə I kurs tələbəsi İnfil Zeyniyev II, Hüquqşünaslıq ixtisası üzrə II kurs tələbəsi Rəşid İbadov isə III yerin sahibi olublar. İştirakçılar diplom və hədiyyələrlə təltif olunublar.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

## ÖMRÜNÜN 35 İLİNİ NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ TƏDRİSƏ HƏSR EDƏN RAFİQ RƏHİMOVUN 60 İLLİK YUBİLEYİ QEYD EDİLİB

**60 illik Yubiley**

Naxçıvan Dövlət Universitetində Tədris və tərbiyə işləri üzrə prorektor Rafiq Rəhimovun 60 illik yubileyi keçirilib. Universitetin rektoru Elbrus İsayev qeyd edib ki, Rafiq müəllimin bütün təhsil həyatı Naxçıvan Dövlət Universiteti ilə bağlı olub. Bildirilib ki, 1987-ci ildə tədris şöbəsində dispetçer vəzifəsindən 1989-cu ildən tədris şöbəsinin müdirliyinə və 2018-ci ildən etibarən Tədris və tərbiyə işləri üzrə prorektor vəzifəsinə qədər keçdiyi şərəfli yol universitetimizə, onun tədris və ixtisaslaşma proseslərinə böyük töhfə olaraq yadda qalıb. Vurğulanıb ki, Rafiq müəllim səmimi insan, etibarlı dost, sevilən müəllim, nümunəvi ailə başçısı kimi bir çox ali dəyərlərə məxsus qiymətli ziyalımızdır. Vurğulanıb ki, Rafiq müəllimin sədaqətli dövlət adamı olması dövlətimizə, ümummilli liderimizin ideyalarına bağlılığı onun fəaliyyətində və vətəndaşlıq mövqeyində özünü göstərir. Rektor yubilyarı təbrik edərək ona sağlıqlı ömür, yaradıcılıq uğurları arzulayaraq universitetin fəxri fərmanını və gül dəstəsini təqdim edib.

Tədris şöbəsinin müdiri, “Nəqliyyat mühəndisliyi və texniki fənlər” kafedrasının baş müəllimi Şahin Əliyev qeyd edib ki, elmi və nəzəri bilikləri ilə təcrübəsini universitetin inkişafına sərf edən Rafiq müəllim ömrünün 35 ilini ali təhsil ocağında tədris sahəsinə həsr edib. Diqqətə çatdırılıb ki, o, tədris proseslərini və bu sahədəki idarəetməni 16 ildir məhz Rafiq müəllim kimi peşəkar və təcrübəli təhsil işçisindən öyrənib. Şahin müəllim yubilyarı təbrik edərək ona cansağlığı, bundan sonrakı



fəaliyyətində uğurlar arzulayıb.

Beynəlxalq münasibətlər və hüquq fakültəsinin dekanı, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Yusif Hüseynov Rafiq müəllimlə birgə çalışdıqları illəri xatırlayıb.

Universitet Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Hüseyn İmanov öz müəllimi haqda dəyərli fikirlərini səsləndirərək Rafiq Rəhimovu ideal müəllim adlandırıb.

Çıxış edənlər yubilyarın ünvanına xoş sözlər, səmimi arzular səsləndiriblər.

Qeyd edək ki, Rafiq Rəhimov 1962-ci ildə Naxçıvan şəhərində anadan olub. 1967-1978-ci illərdə Naxçıvan şəhər 4 saylı məktəbdə təhsil alıb. 1979-1983-cü illərdə Naxçıvan Dövlət Universitetinin “Tarix” fakültəsində təhsil alıb. Rafiq müəllim 1994-cü ildə “Azərbaycan tarixi” kafedrasında müəllim, 2000-ci ildə baş müəllim, 2011-ci ildən dosent vəzifəsində çalışır. 2003-cu ildə “Naxçıvan Muxtar Respublikasının Xarici Əlaqələri” (1991-2001) mövzusunda müdafiə edərək tarix üzrə fəlsəfə doktoru alimlik dərəcəsi alıb. 1993-cü ildən YAP-ın üzvü olan Rafiq Rəhimov 2007-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinin “Qabaqcıl təhsil işçisi” döş nişanı ilə, Azərbaycan Respublikası Prezidentinin 31 oktyabr 2017-ci il tarixli Sərəncamı ilə “Tərəqqi” medalı ilə təltif edilib.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# ELMİN, İNKİŞAFIN VƏ YENİLİKÇİ İDEYALARIN ÜNVANI: DOĞMA NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

Elmi-tarixi inkişafın bütün mərhələlərində olduğu kimi, bu gün, müasir dövrdə də öz uğurları ilə seçilən muxtar respublikamızın təhsil şəraiti dinamik inkişaf yolunda əmin addımlarla irəliləməkdədir. Dövlətimizin yüksək diqqət və qayğısı ilə günü-gündən abadlaşan, müasir görkəmə qovuşan ən ucqar kənd obyektlərimizdə belə hər cür avadanlıqla təchiz olunmuş, müəllim və tələbə kollektivinin ixtiyarına verilmiş işıqlı sinif otaqları, laboratoriya kabinələri, hər məktəbin özündə fəaliyyət göstərən kitabxanalar bunu deməyə bir daha əsas verir. Təbi ki, bu reallığın arxasında milli vətənpərvərlik məfkurəsinə söykənən və əsası ümumilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasətinə, təhsil şəraitinə göstərilən yüksək diqqət və qayğı dayanmaqdadır.

Bu gün qürurla, böyük fəxrlə deyə bilərik ki, sözügedən uğurlu reallıqlar ölkəmizin ən qabaqcıl, prestijli və bir-birindən zəngin yenilikci ideyaların ünvanı olan Naxçıvan Dövlət Universitetində də mövcuddur. Bu mənada, elə ölkə Prezidenti cənab İlham Əliyevin ölkəmizin ali təhsil müəssisələri sırasında özünəməxsus yeri olan Naxçıvan Dövlət Universiteti haqqında dediyi "Naxçıvan Dövlət Universiteti zəngin maarifçilik ənənələrinə malik Naxçıvan diyarında yüksəkixtisaslı kadrların yetişdirilməsinə, elmi mühitin formalaşdırılmasına və bütövlükdə, regionun tərəqqisinə öz müsbət təsirini göstərmişdir. Onun məzunları bu gün Azərbaycanda milli dövlət quruculuğunun ən müxtəlif sahələrində yaxından iştirak edir, ölkəmizin iqtisadi, elmi və mədəni potensialının gücləndirilməsinə layiqli töhfələr verirlər" yüksək fikirlər bir daha dediklərimizi təsdiq edir.

Naxçıvan Dövlət Universiteti, sözün həqiqi mənasında, ölkənin ən nüfuzlu, qabaqcıl təhsil ənənələrinə malik tədris ocaqlarından biridir. Universitetin müasir inkişaf mərhələsi, fəaliyyət istiqamətləri, yeni infrastrukturunun qurulması Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun digər sahələrdə olduğu kimi, təhsilin inkişafında da ümummilli lider Heydər Əliyev siyasətinə sədaqətinin bəhrələridir. Bir-birindən gözəl tədris korpuslarının inşa edilməsi və ya yenidən qurulması, onların müasir tədris vasitələrilə təmin edilməsi sahəsində görülən işlər Ali Məclis Sədrinin universitetin professor-müəllim heyətinə, çoxminli tələbə kontingentinə qayğısının ifadəsidir. Təsadüfi deyil ki, doğma universitetimiz ölkə miqyasında, o cümlədən beynəlxalq təhsil arenasında da qarşılıqlı əməkdaşlıq sahəsində əldə etdiyi uğurlarla bu gün dünya ölkələrinin diqqət mərkəzindədir. Məlumat üçün bildirək ki, son illərdə Naxçıvan Dövlət Universiteti əcnəbi tələbələrin sayına görə ölkəmizdə fəaliyyət göstərən ali təhsil ocaqları sırasında ilk sıralardadır. Belə ki, təhsil ocağında Cənubi Koreya, Pakistan, Türkiyə, Özbəkistan, Nigeriya və bir neçə ölkənin vətəndaşları müvafiq ixtisaslar üzrə təhsil alır. Ən böyük üstünlüyü isə qardaş Türkiyə Respublikasının tələbə-gəncləri təşkil edir. Bununla yanaşı, Naxçıvan Dövlət Universitetinin Amerika Birləşmiş Ştatları, İngiltərə, Fransa, Türkiyə Cümhuriyyəti, İran İslam Respublikası, Rusiya, Macarıstan, Misir Ərəb Respublikası, Pakistan İslam Respublikası, Cənubi Koreya Respublikası, Çin Xalq Respublikası, Avstriya və digər ölkələrin universitetləri ilə əməkdaşlıq əlaqələri mövcuddur. Bu əlaqələrin ifadəsi kimi Naxçıvan Dövlət Universitetinin nümayəndə heyətinin ötən il 8-16 iyul tarixlərdə Türkiyənin prestijli universitetlərinə rəsmi səfər etməsi bir daha bunu təsdiq edir. Qeyd etmək yerinə düşər ki, ötən ildə baş tutan bu səfər çərçivəsində Türkiyənin ən nüfuzlu universitetləri ilə beynəlxalq səviyyədə əməkdaşlıq müqavilələri imzalanmışdır. Əlavə olaraq 3 sentyabr 2021-ci il tarixdə "Times Higher Education" (The World University Rankings 2022) dünya universitetləri portalında reytinq sıralamasında dünyanın ən yaxşı universitetləri arasında Naxçıvan Dövlət Universiteti də yer almışdır. Ali təhsil ocağına müəyyən vaxtlarda səfər etmiş diplomatik səfir və nümayəndələr ilə akademik və rəsmi səviyyədə görüşlər keçirilmiş, həmin ölkələrin ali təhsil müəssisələri ilə beynəlxalq əlaqələrin qurulması sahəsində bir sıra addımlar atılmışdır. Universitetin beynəlxalq əlaqə müstəvisində ard-arda əldə etdiyi bu uğurlar isə özlüyündə tariximizin səhifələrinə günümüzün reallıqları kimi yazılır. Son olaraq bir məqamı da məxsusi olaraq vurğulamaq lazımdır ki, hər bir sahədə əldə edilən uğurların təməlində peşəyə duyulan dərin ehtiram, dövlətçilik ənənələrinə sıx bağlılıq, vətəni sevib-sevdirmək məramı dayanmaqdadır. Bu gün doğma universitetimizin inkişaf və tərəqqi simasını qazanmasında başda ölkə və muxtar respublika rəhbərliyinin diqqəti olduğu kimi, ali təhsil ocağının rektoru, dosent Elbrus İsayevin də rolu danılmazdır. Uzun illər muxtar respublikamızda pedaqoji fəaliyyətlə məşğul olmuş Elbrus İsayevin bu günlərdə əldə etdiyi növbəti uğuru - "2021-ci ilin ən yaxşı rektoru" sosial tələbə sorğusunun qalibi seçilməsi isə bizlərin və bütün universitet kollektivinin sevincinə səbəb oldu. Buna görə bütün mətbuat kollektivi və ali təhsil ocağının nümayəndələri adından Elbrus müəllimi təbrik edir və daha böyük uğurlara imza atmasını arzu edirik.

Uzun illər ali təhsil ocağında pedaqoji fəaliyyət göstərən professor-müəllim və tələbə kollektivi ilə də səmimi, maraqlı söhbət edərək universitetimizdə yaradılan uğurlarla onların gözü ilə daha yaxından tanış olduq.

İlk müsahibimiz Tarix-filologiya fakültəsinin dekanı, dosent Rəsul Bağırov bizimlə söhbət zamanı bildirdi ki, ölkəmizdə olduğu kimi, onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda da təhsilin inkişafına hərtərəfli diqqət və qayğı göstərilir, bu sahədə ardıcıl tədbirlər həyata keçirilir, təhsil müəssisələrinin maddi tədris bazası möhkəmləndirilir, infrastrukturu yenilənir. Təhsilin səviyyəsinin yüksəldilməsi məqsədilə ötən dövr ərzində muxtar respublikada 200-dən çox təhsil müəssisəsi üçün binalar tikilib və ya əsaslı şəkildə yenidən qurulub. Böyük qürurla qeyd etməliyəm ki, bu uğurlardan illərdir pedaqoji fəaliyyətlə məşğul olduğum Naxçıvan Dövlət Universitetinin payına da düşüb. Uzun illərdir ki, bu cür peşəkar kollektivin arasında olduğum üçün Naxçıvan Dövlət Universitetinin keçdiyi inkişafa, qazandığı uğurlara yaxşı şahidəm. İstər dekanı kimi fəaliyyət göstərdiyim tarix-filologiya fakültəsi olsun, istərsə də digər korpuslarda tədris olunan fərqli ixtisas sahələrində kifayət qədər uğurlarımız mövcuddur. Məlumat üçün bir neçəsini qeyd etməli olsaq, demək istərdim ki, yeni nəsil gəncliyin hərtərəfli inkişafını təmin etmək üçün Naxçıvan Dövlət Universitetində yaradılmış Tələbə Gənclər Təşkilatı, Tələbə Elmi



Cəmiyyəti, Tələbə turizm assosiasiyası, Tələbə informasiya mərkəzi, Tələbə teatr və opera studiyaları, xor, vokal və rəqs qrupları, İdman klubu səmərəli fəaliyyət göstərir. Ali təhsil ocağının tələbə təşkilatları universitetdə tələbələrin yaradıcılıq axtarışlarının, bilik və bacarıqlarının, dünyagörüşünün, təşkilatçılıq qabiliyyətlərinin daha da inkişaf etdirmələrinə, asudə vaxtlarının səmərəli təşkilinə geniş imkan yaradır. Bununla yanaşı, müasir təhsil infrastrukturunun, möhkəm maddi-texniki bazanın və güclü kadr potensialının yaradılması xarici tələbələrin bu ali təhsil ocağına cəlb olunmasında başlıca amildir. Son illərdə universitetə təhsil almaq üçün müraciət edən əcnəbi tələbələrin sayında yüksək artım dinamikasının müşahidə olunması Naxçıvan Dövlət Universitetinin nüfuzunun dünyada artmaqda olduğunu bir daha təsdiq edir. Təbii ki, bu reallığın arxasında başda muxtar respublika rəhbərliyinin, habelə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun davamlı diqqət və qayğısı dayanmaqdadır.

Göründüyü kimi, Naxçıvan Dövlət Universitetinin keçdiyi yol müstəqil Azərbaycan dövlətində ali təhsilin inkişaf etdirilməsi sahəsində Heydər Əliyev siyasətinin uğurla həyata keçirilməsinin mühüm nəticələrindən biridir. Naxçıvan Dövlət Universitetinin çoxminli kollektivi bundan sonra da Heydər Əliyev ideyalarının işığında inkişafı və müasirləşməni fəaliyyətinin əsas meyarı hesab edəcəkdir.

Tarix üzrə fəlsəfə doktoru, ali təhsil ocağının müəllimi Arzu Abdullayev söhbət zamanı bildirdi ki, ulu öndərin milli ideologiyasının əsasında dayanan dövlət gənclər siyasəti əsrlər boyu xalqımızın malik olduğu milli-mənəvi dəyərlər əsasında, müstəqillik, dövlətçilik, azadlıq və onların qorunması uğrunda mübariz ruhlu gənc nəslin yetişdirilməsindən ibarət olub. Milli dövlətçiliyin möhkəmləndirilməsi və inkişaf etdirilməsi, demokratik cəmiyyət quruculuğu, siyasi, hüquqi və iqtisadi islahatların həyata keçirilməsi ilə bağlı Ulu Öndərin ideyaları və irəli sürdüyü prinsiplər Azərbaycanın hazırkı və gələcək inkişaf strategiyasının əsasını təşkil edib. Əsası ulu öndər tərəfindən qoyulan dövlət gənclər siyasətinin nəticəsidir ki, bu gün ölkəmizdə idarəetmə bacarığı ilə seçilən intellektual, dünyagörüşlü, vətənpərvər yeni nəsil yetişib. Bununla yanaşı, qüdrətli lider İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafına təkan verib, onların özlərini cəmiyyətdə təsdiq etməsində mühüm rol oynayıb. Bu siyasət nəticəsində gənclərimiz dövlətçiliyə bağlı, intellektual, yüksək dünyagörüşlü bir qüvvə kimi formalaşıblar.

Qeyd etmək isdərdim ki, milli-mənəvi dəyərlərin yaşadılması, inkişaf etdirilməsi, təbliği, ən əsası isə ümummilli ideyaların əsas götürülməsi böyük tarixə və dərin köklərə malik olan muxtar respublikamızda da daim diqqət mərkəzində saxlanılmış gənclik bu ruhda tərbiyyə olunmuşdur. Bütün bunları bu gün Naxçıvan Dövlət Universitetində elmə, təhsilə, gəncliyə göstərilən yüksək qayğının real təzahüründə görmək mümkündür.

Muxtar respublika rəhbəri Cənab Vasif Talıbovun Universitetə və onun çoxminli gənclərinə göstərdiyi yüksək diqqət və qayğı nəticəsində Respublikamızın ən qabaqcıl ali məktəblərindən biri kimi səciyyələndirilən, muxtar respublikanın əsas elm, təhsil, ictimai fikir və mədəniyyət mərkəzlərindən olan Naxçıvan Dövlət Universiteti ölkəmizin ali məktəbləri sistemində yüksək nüfuzu, hərtərəfli inkişafı ilə sayılıb seçilir. Təsadüfi deyildir ki, göstərilən yüksək dövlət qayğısının timsalında Naxçıvan Dövlət Universiteti bir sıra sahələr üzrə ali təhsil müəssisələri arasında öncül yerləri tutaraq klassik universitetlərlə müqayisə olunmuş, regionun elm və təhsil mərkəzlərindən biri kimi tanınmışdır.

Son illər yüksək dövlət qayğısından bəhrələnən Naxçıvan Dövlət Universitetinin Rektoru Elbrus İsayev də Naxçıvan Dövlət Universitetinin qarşısındakı dövrlər üzrə hədəfləri daha dəqiq müəyyənləşdirərək istər təhsil, istər elmi araşdırmalar, istərsə də yaradıcı ideyalar sahələrində formalaşan potensialı düzgün istiqamətləndirmişdir. Eləcə də beynəlxalq layihələr, texnopark, ikili diplom, xarici dildə ixtisasların açılması, keyfiyyətyönümlü tədris, elektron jurnal, yeni-yeni laboratoriya, kabinələrin açılması, imtahanlarda maksimum şəffaflıq və düzgünlük, Elbrus İsayevin qısa vaxtdakı rektorluq fəaliyyəti nəticəsində nail olunmuşdur.

Son olaraq bir məqamı da diqqətinizə çatdırmaq istərdim ki, universitetin ötən illər ərzində inkişafı istiqamətində görülən işlərin nəticəsində ümumilikdə 405 mindən çox izləyicisi olan, Qafqazın ən böyük təhsil səhifəsi olan, Azərbaycan Teleqram seqmentində təhsil kateqoriyası üzrə lider olan "Azərbaycan Universitetləri" səhifəsi, keçirdiyi "2021-ci ilin ən yaxşı rektoru" sosial tələbə sorğusunun qalibi məhz Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev olmuşdur.

Bir digər müsahibimiz qardaş Türkiyə Respublikasının Bursa şəhərindən olan Əsra Akkoyunlu deyir ki, Naxçıvanda təhsil almağın çox böyük imkanları var. Ən əsası isə bizə bu geniş imkanları məhz Naxçıvan Dövlət Universitetinin peşəkar professor-müəllim heyəti yaradır. Oxuduğum müddətdə mənimlə xoş ünsiyyətdə olan müəllimlər və səmimi dostlar əldə etdim. Nə zaman müəllimlərimə hansısa məsələ ilə bağlı müraciət etmişəmsə, qısa zamanda cavab almışam. Dilimizin, kökümüzün, adət-ənənələrimizin, tariximizin bir olması imkan verir ki, birbirimizi daha yaxşı başa düşək. Buraya daha yaxından bələd olduqca görürəm ki, Naxçıvan, həqiqətən də, ən qədim Oğuz-türk yurdudur. Bu torpağın hər qarışında ədcadlarımızın yaratdığı böyük mədəniyyətin, qədim tarixin izləri var. Bununla yanaşı, mən və bir neçə tələbə yoldaşım birlikdə müasir şəraitli tələbə yataqxanasında qalırıq və bu da bizim üçün hər cəhətdən rahat və sərfəlidir. Təhsilin səviyyəsi yüksəkdir. Tədrisdə ən müasir texnologiyalar tətbiq olunur. Naxçıvanda insanlar arasındakı mehribanlıq, qonaqpərvərlik məni buraya daha çox bağlayır. Hara gedirəmsə, insanlardan həmişə isti münasibət görürəm. Pandemiyanın yaratdığı müəyyən çətinliklərin aradan qaldırılması məqsədilə, milli və dini bayramlarda muxtar respublika rəhbərinin xüsusi qayğısının şahidi olmuşam. Bu bizim doğmalarımızda da təhsil aldığımız məkan haqqında müsbət rəy, əminlik yaradır. Buranın təmiz, abad, səliqəli və təhlükəsiz yer olması bütün xarici tələbələrin ürəyincədir. Tərəddüd etmədən günün istənilən saatında şəhərə çıxmaq imkanımız var. Universitetin kitabxanasından, elektron oxu zalından mütəmadi istifadə edirəm.

Beləcə, bir tələbə-jurnalist kimi özümə mənəvi borc bilərək qələmə aldığım bu yazımda hər birimizə doğma olan, neçə-neçə ziyalıları ölkəmizdə və muxtar respublikamızda, habelə ölkə hüdudlarından kənarda da savadlı, potensial bir kadr kimi yetişdirən və tanıdan Naxçıvan Dövlət Universiteti haqqında məlumat verərək son illərdə əldə etdiyi uğurlara birgə şahid olduq. Müsahiblərimizin maraqlı söhbətlərindən gəldiyimiz qənaət budur ki, ali təhsil ocağının qazandığı uğurların hər biri gələcək fəaliyyət istiqamətlərinin, inkişafın və tərəqqinin ən gözəl təminatçısıdır. Ümid edirik ki, başda ali təhsil ocağının rektoru Elburus İsayev olmaqla peşəkar kollektiv yaxın gələcəkdə yeni-yeni uğurlara imza atacaq.

**Məcid Əkbərov**
*Jurnalistika ixtisası üzrə III kurs tələbəsi*

# NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ DAHA BİR YENİLİK



Yaşadığımız dövr texnologiya əsri adlanır. Çünki cəmiyyətin elə bir sahəsi yoxdur ki, müasir texnologiyalar ora nüfuz etməsin. Məhz bu dəyişikliklər də dünyada gedən qloballaşmaya ciddi təsir edir. Qloballaşma sözünün ahəngində isə iki təzad nəzərə çarpır: "nəhənglik" və "kiçiklik". Çünki müasir texnologiyaların sayəsində əvvəllər bizim üçün "nəhəng" olan dünya indi ovcumuzun içinə sığacaq qədər "kiçikdir". İnformasiya və kommunikasiya texnologiyaları (İKT) vasitəsi ilə insanlar üçün bir vaxtlar uzaq və əlçatmaz olan şeylər artıq çox yaxınımızdadır. Çox təəssüf ki, uzağı bizə yaxınlaşdıran texnologiya bəzən yaxını da uzaqlaşdırır. Düşünürəm ki, bu hal texnologiyadan kor-koranə istifadə edənlər üçündür. Çünki biz texnologiyadan nə qədər yerində və düzgün istifadə etsək bir o qədər inkişaf edərik. Əsl inkişaf isə elmin və texnologiyanın birləşdiyi yerdən başlayır. Danılmaz bir faktdır ki, bu gün elm sahəsində əldə etdiyimiz yeniliklər və nailiyyətlərdə informasiya və kommunikasiya texnologiyalarının da rolu böyükdür.

Təhsil aldığım Naxçıvan Dövlət Universitetində fəaliyyət göstərən İKT və Elektron təhsil şöbəsi də daim yeniliklər yaradaraq ali təhsil ocağında gedən inkişafdan xəbər verir. Hər zaman uğurlara imza atan doğma universitetimizdə bu yaxınlarda daha bir yenilik yaşandı. Artıq elektron imtahan sistemi yenidən hazırlanaraq daha da təkmilləşdirilmiş formada həyata keçirilir. İKT və Elektron təhsil şöbəsi tələbələrin daha rahat və şəffaf formada imtahan vermələri üçün yeni sistem yaradıb. Sistem bir sıra üstün cəhətləri ilə seçilir. Yeni yaradılan elektron imtahan sisteminə öz şifrəsini daxil edən hər bir tələbənin monitorda şəxsi məlumatları əks olunur. Eyni zamanda sualları cavablandırdıqca onların sıra nömrəsini də görmək mümkündür. Bu isə imtahanda istər-istəməz həyəcan keçirən tələbələrin "Görəsən neçə sual yazmışam? Sona çatmağıma daha neçə sual qalıb? kimi narahatlıqlarına son qoyaraq həyəcanını azaltmalarına kömək olur. Müəyyən olunmuş vaxt ərzində kompüterin köməyi ilə 50 sualı cavablandıran hər tələbə imtahanı bitirdiyini təsdiqlədikdən dərhal sonra imtahan nəticəsi ilə bağlı anında məlumat əldə edir və hətta "göndər" düyməsi ilə öz nəticəsini elektron poçtuna göndərə bilir. Bundan əlavə isə imtahan bitdikdən sonra, əgər yanlış cavablandırılan sual varsa həmin sualın nömrəsi ekranda qırmızı rəngdə görünür. Qırmızı rəngdə görünən nömrənin üstündən vurduqda sənə hansı sualı yanlış cavablandırdığını göstərir.

Bütün tələbələrin çox bəyəndiyi bu sistem Naxçıvan Dövlət Universitetinin hərtərəfli inkişafından xəbər verməklə yanaşı texnologiya sahəsində rəqabət apara biləcək gücə sahib olduğunu da sübut edir. Dünya təhsil sisteminə uğurla inteqrasiya edən Naxçıvan Dövlət Universiteti öz nailiyyətləri ilə hər zaman üstünlüyünü qorumağı bacarır. Doğma universitetimizdə olan hər bir yenilik biz tələbələri sevindirməklə yanaşı elm sahəsində çalışmaq əzmimizi də artır. Belə bir təhsil ocağının tələbəsi olmaq isə ayrıca bir qürurdur.

**İlahə Allahverdiyeva**
*Jurnalistika ixtisası üzrə III kurs tələbəsi*

# NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ: GÜCLÜ DAYAQLAR ÜZƏRİNDƏ HƏDƏFLƏRƏ DOĞRU



Təhsil, bütün dövrlərin aktuallığını artıran tələbi, həmin tələblərin reallaşma proseslərinin zəruri meyarı və səmərəli nəticələrin əldə olunmasına zəmin olan amildir. Təhsil mütəxəssis hazırlığının etibarlı mənbəyi, araşdırma vərdişlərinin inkişaf mərkəzi, yanaşma keyfiyyətlərinin geniş əhatədə təşəkkülünün hərəkətverici qüvvəsi olmaqla, eyni zamanda, bütün bunların əsasında da dəqiq və hamı tərəfindən qəbul olunan dünyagörüş bacarıqlarının məcmusudur. Təhsil həmçinin, fərdi məntiqi düşüncənin elmə söykənən ictimai dəstək formasıdır. Qeyd olunanlar əsasında, təhsil, həm də, elm və həyatın, nəzəriyyə və təcrübənin, baxış və təhlilin istinad nöqtəsidir. Gəncliyin düşüncəsi ilə, qənaətin yeniliyi və aktuallığı arasında əlaqənin, bağlılığın və sintezin də zəruri təminatlılığı məhz təhsil anlayışı ilə tamamlanmış olur. Bu isə öz növbəsində, bütövlükdə, cəmiyyət üçün, onun üzvlərinin mənafeyi naminə daha məhsuldar ola bilir. Buna görə də, onun düzgün təşkili və idarə olunması olduqca zəruridir.

Müasir sosial və iqtisadi sahələr üzrə reallaşan islahatlar bütün sahələr kimi təhsil sektorunun da mövcud inkişaf göstəricilərinə xas şəkildə, yeni dəyərlər əsasında və daha modern imkanlara malik olmaqla, təşkilatlanmasına səbəb olmaqdadır.

Hazırda ölkələrin milli iqtisadiyyatları üçün aktuallığını qoruyan mühüm amillərdən birini də yeni təhsil standartlarının müəyyən olunması, orada tələbələrin və bütövlükdə, gənclərin elmi, intellektual, modernləşməyə üstünlük verən, bilik və bacarıqlarının dünya çağırışlarına səs verəcək səviyyədə təminatlılığına yol açan dəyərlərin mövcud olması təşkil etməkdədir. Bu mənada, etibarlı ali təhsil şəbəkəsinin yaradılması, onun regional və milli mahiyyətinin əsaslandırılması və səmərəli fəaliyyət imkanlarının ortaya qoyulması zəruriliyi ilə seçilməkdədir. Ölkəmizdə, onun regionlarında, xüsusilə də, Naxçıvan Muxtar Respublikasında ali təhsilin davam etdirilən islahatlara uyğun olmaqla, etibarlı təşkili öz məhsuldar nəticələrini verməkdədir və bu, həm də Naxçıvan Dövlət Universitetinin (NDU) qazandığı uğurlarda, mövcud potensialının gücləndirilməsi və gələcək hədəflərinin daha da əlçatan olmasında özünü göstərməkdədir.

NDU müasir müstəqillik illərinin ən möhtəşəm inkişaf tarixini yaşamaqdadır. Xalqımızın ümummilli lideri Heydər Əliyevin gənclərin təlim-tərbiyəsinin diqqətdə saxlanılması, onların etibarlı təhsil imkanları ilə əhatə olunması, savadlanması, ixtisaslaşması, peşəkar mütəxəssis olaraq formalaşmaları sahəsində müəyyən etmiş olduğu strategiya Naxçıvan Dövlət Universitetinin tədris proseslərində özünün əhatəliliyi ilə reallaşmaqdadır. Ali məktəb, iqtisadiyyatın sahə strukturunun əlaqəli və davamlı inkişafı üçün zəruri olan proseslərin düzgün istiqamətləndirilməsi sahəsində mütəxəssis hazırlığının həyata keçirilməsində və bu sahədə məqsədyönlülüyün diqqətdə saxlanılmasında özünü sübut etməkdədir.

Artıq geridə qalan 2021-ci il Naxçıvan Dövlət Universitetinin istər tədris proseslərinin təşkili və idarə olunmasında, istər quruculuq, abadlaşdırma və modernləşmə sahələrində, istərsə də, beynəlxalq əməkdaşlıqların qurulması və inkişafında əldə etmiş olduğu uğurlarla yadda qaldı. Belə ki, 2020-ci ilin dekabrında yaradılmış universitet Texnoparkının 2021-ci il 16 iyun tarixində təməlatma mərasimi keçirilmiş və zirzəmi ilə birlikdə beş mərtəbəli binanın tikintisi uğurla davam etdirilməkdədir. Texnopark özündə biznes ideyalarının yaradılması, dəyərləndirilməsi və səmərəli nəticələrinin istehsalata tətbiqi imkanları ilə birlikdə olduqca əhəmiyyətli bir struktur olacaq. Orada, ideyanın verilməsi və biznesə qədərki mərhələlərdə onun təkmilləşdirilməsi məsələləri, tələbələrin və ümumilikdə, gənclərin yaradıcılıq imkanlarının inkişafı sahəsində gerçək nəticələr özünü göstərəcəkdir. Texnoparkda arıçılıq, kənd təsərrüfatı və aqronomluq, meliorasiya, coğrafiya, gülgarlıq, üzümçülük və tingçilik sahələrinin yaradılması, müvafiq istiqamətlər üzrə həm də kadr hazırlığının həyata keçirilməsində əsaslı zəminlər demək olacaqdır. Çoxistiqamətli ixtisaslaşma perspektivləri əsas tutulmaqla Texnoparkda biopark binasının da tikilməsi mütəxəssis hazırlığının da səmərəliliyini artırmış olacaqdır. Eyni zamanda, Texnopark ərazisində Nəbatət bağının salınması həm də tələbələrin nəzəriyyədən təcrübəyə keçid mərhələsinin çox əlverişli tərəflərini özündə əks etdirəcəkdir. Texnoparkda həmçinin tədris otaqlarının ayrılması qeyd olunanların elmi əsaslara söykənməklə, daha səmərəli nəticələrini təmin edəcəkdir.

Ötən il ərzində universitetdə Texnologiya Mərkəzinin yaradılması bu sahədəki proseslərin hərəkətverici qüvvəsi olmaqdadır. Artıq tələbələrimiz nəzəri biliklərini artırmaqla yanaşı, bu mərkəzdə "Tikiş texnologiyası", "Xalçaçılıq texnologiyası", "Toxuculuq texnologiyası", "Kulinariya", "Ağac və metal məmulatlarının hazırlanması texnologiyası" kabinələrində həm də öz yaradıcılıq keyfiyyətlərini və bacarıqlarını daha da artırmaqdadırlar. Təbii ki, bu, bir tərəfdən də universitetin milli mənəvi dəyərlərimizin qorunması və inkişafı sahəsində mühüm bir nəticəsi olaraq əhəmiyyətlidir. Bu, həm də bir daha gənclərin, tələbələrin ideya müəllifi olaraq formalaşmasında mühüm amildir.

Göstərilən məsələlər, Naxçıvan Dövlət Universitetinin keçdiyimiz inkişaf mərhələsində formalaşdırmış olduğu etibarlı bazaya çevrilmiş və daha əhatəli tədbirlər üçün yeni bir başlanğıc olmuşdur. Təbii olaraq, texnoparkın istifadəyə verilməsindən sonrakı mərhələlər üçün daha mütərəqqi proseslərin əsaslarının qoyulması da diqqətdə saxlanılmışdır. Bu məqsədlə, NDU-nun yeni mərhələ üçün beynəlxalq əməkdaşlıqların məhz bu dəyərlər əsasında yaradılması və inkişafı hədəf olaraq qəbul olunmuşdur. Qarşıdakı dövrlərdə xarici ölkələrlə təhsil, təcrübə və tələbə mübadiləsinin həyata keçirilməsi, tələbələrin dünyaya çıxış imkanlarının artırılması, yeni ərə, yeni çağırışlara və yeni təhsil standartlarına uyğunlaşmasının hərəkətverici qüvvəsi olaraq olduqca əlamətdar olacaqdır. Xüsusilə, burada ikili diplom layihələrinin qüvvəyə minməsi Naxçıvan Dövlət Universitetinin həm də təhsildə yeni dəyərlərə verdiyi önəmin göstəricisi olaraq zəruridir. Təsadüfi deyildir ki, məhz 2021-ci ilin 8-16 iyul tarixlərində NDU rektorunun rəhbərlik etdiyi nümayəndə heyətinin qardaş Türkiyə Cümhuriyyətinin Ali Təhsil Şurasında və nüfuzlu universitetlərində görüşlərdə olması bu sahədəki hədəflərin daha da əlçatan olmasına zəmin yaratmışdır. Çox sevindirici haldır ki, bu görüşlərdə Naxçıvan Dövlət Universitetinin əldə etdiyi uğurlar razılaşdırılmış məsələlərin reallaşmasında çox mühüm amil olaraq çıxış etmişdir. Yəni, tələbələrin biliyinin artırılması, tədris metodologiyasının yeni keyfiyyət göstəricilərinə xas olan təşkili, qloballaşan dünya reallıqlarına uyğun olan fənlərin tədris planlarına salınması, aktuallığını daha da artıran texnoloji və innovativ yanaşmaların diqqətə alınması və digər səmərələşdirici amillər bu nəticələrə parlaq işıq salmışdır.

NDU-nun beynəlxalq əməkdaşlıqlarının inkişafı 2021-ci ildə ali məktəbimizə səfər edən xarici ölkə səfirlərinin məmnunluğu ilə daha da etibarlılıq qazanmışdır. Ötən ilin mayında Fransanın, iyulda Türkiyə Cümhuriyyətinin, avqustda ABŞ, sentyabrda Argentina səfirlərinin, noyabrda isə Türkiyə Prezidentinin baş müşaviri və müşavirlərinin, həmçinin, İğdır Universitetinin rektorunun Naxçıvan Dövlət Universitetində səfərdə olması ali məktəbimizin beynəlxalq əməkdaşlıq sahəsindəki tədbirlərinə işıq salmaqla yanaşı, eyni zamanda, onu daha da səmərəli etmişdir. Bunun üçün artıq universitetimizdə əlverişli mühit də yaradılmışdır. Dövlət tərəfindən göstərilən qayğının nəticəsi olaraq, beynəlxalq əməkdaşlıqlarda əldə olunan uğurlar özünü tədris proseslərindəki yüksək nəticələrlə də göstərmiş oldu. Artıq bu gün universitetimizdə 1500 əcnəbi tələbənin təhsil alması həmin əməkdaşlıqların daha üst səviyyədə inkişafını və onun əsasında yaranan nəticələrin real ifadəsini göstərməkdədir.

NDU-nun bu potensial əsasında yoluna davam etməsi onun hər bir fakültəsində, ixtisasında özünü göstərməklə mümkün olmaqdadır. Texnoloji inkişafa və innovativ təşkilatlanmaya doğru atılan inamlı addımlar bu sahələr üzrə şaxələndirmənin təminatına çevrilmişdir. Elə bütün bunların nəticəsidir ki, artıq Naxçıvan Dövlət Universitetinin ölkənin rəqəmsallaşma mühitindəki yeri və rolu daha da artmaqdadır. Yeni inkişaf mərhələsində universitet dünya təhsilinə inteqrasiyanın çox mühüm mərhələsini keçməkdədir. Bu, daha elmli, daha təhsilli, daha ixtisaslı, daha savadlı və daha dünyagörüşlü tələbələrlə çox asan olacaq. Qeyd etmək olar ki, universitet haqqında məlumatların, tədris proseslərinin təşkili, tədris illəri haqqında məlumatlar daha asan qaydada əlçatan olmaqdadır. Belə ki, universitetin mobil tətbiqi olan "NETTY 2021" bu sahədəki göstəricilərlə Azərbaycanın Milli İnternet Mükafatına layiq görülmüşdür. NDU-nun tələbələri bu vasitə ilə dərslər, kollokviumlar, imtahan cədvəllərinin, suallarının və nəticələrinin vahid platformada birləşdiyi istənilən elektron materialı "E-cədvəl" mobil tətbiqindən əldə edə bilirlər.

NDU özünün ixtisaslaşması, dünya təhsilinə çıxış imkanları, inteqrasiyası, həmçinin daha səmərəli və keyfiyyətli təhsil üçün yeniliklər etməsi uzunmüddətli hədəflərin reallaşmasına da öz töhfələrini verməkdədir. Burada, ilk dəfə tədrisi həyata keçirilən hərbi tibb ixtisasının təqdimat mərasimi olmuşdur ki, bu da artıq ümumilikdə, milli iqtisadiyyat üçün də mühüm aktuallıq kəsb edən sosiallaşma proseslərinin hərəkətverici qüvvəsinə çevrilmişdir. Artıq yeni mərhələdə universitetimiz Vətənimizin keşiyində dayanan qəhrəman övladlar və ümumilikdə, vətəndaşlar üçün öz qayğısını və qulluq imkanlarını genişləndirmiş olacaq. Bu məqsədlə, hərbi tibb ixtisasına qəbul olunan tələbələrə həkim xalatları və hərbi formalar təqdim olunmuşdur. Təbii ki, bununla, həyata keçirilən islahatların geniş əhatədə nəticələrinin şahidləri olmaqdayıq.

Bütün bu qeyd olunanlar hər birimizin qürurumuz olmaqdadır. Məhz bu nailiyyətlərin nəticəsində də dünyanın ən yaxşı universitetləri sırasında Naxçıvan Dövlət Universitetinin də qərarlaşması yeni bir nailiyyət olaraq əhəmiyyətlidir. Universitetimiz bu göstərici ilə milli təhsilin inkişafı sahəsindəki nailiyyətlərinə yeni dəyərlər qazandırmaqdadır. Məlum olduğu kimi, Azərbaycanın 5 ali təhsil müəssisəsinin yer almış olduğu siyahıda Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Xəzər Universiteti və Qərbi Kaspi Universitetini də görmək olar.

Beləliklə, Naxçıvan Dövlət Universiteti qısa zaman kəsiyində mühüm və əhatəli perspektivlərə istiqamətlənən inkişaf yolu keçmişdir. Təşkilati, sosial və iqtisadi mahiyyəti yüksək idarəetmə əsasında mümkün olan bu nəticələr milli təhsilimiz üçün olduqca səmərəli olacaqdır. Cari ildə universitetimizin əldə edəcəyi uğurların güclü dayaqları məhz bunlar olacaq.

**Cavadxan Qasımov**
***"Dünya və menecment iqtisadiyyatı" kafedrasının müdiri, iqtisad üzrə fəlsəfə doktoru, dosent***

# ETİBARLI TƏHSİL ALMAĞIMIZ ÜÇÜN HƏR BİR ŞƏRAİT YARADILIB



Tələbəsi olmağımızla fəxr etdiyimiz Naxçıvan Dövlət Universitetinin sürətli inkişafı bizi sevindirməkdədir. Yeni inkişaf mərhələsində universitetimizin bütün fakültələrində sağlam, savadlı və ixtisaslı kadrların hazırlanması burada yaradılmış hərtərəfli şərait nəticəsində mümkün olmuşdur. Hazırkı dövrdə dünyada baş verən kəmiyyət və keyfiyyət irəliləyişləri bütün sahələr kimi təhsilalma şəraitinin də bu dəyişikliklərə uyğunlaşmasını tələb edir ki, burada da, Naxçıvan Dövlət Universitetinin artmaqda olan rolu hər birimizə qürur verməkdədir. Müasir texniki və texnoloji avadanlıqlar, səmərəli innovativ imkanlar və bunlarla da, təşkil olunan öyrətmə və öyrənmə mühiti məhz biz tələbələrin dərslərimiz və savadlanmağımız üçün olduqca vacibdir.

Artıq universitetimizdə yaradılmış əlverişli şərait hər birimizin dünya elminə inteqrasiya edən tədris proseslərindən səmərəli şəkildə faydalanmağımız üçün güclü əsaslar gətirməkdədir. Çünki bizim təhsil imkanlarımız artdıqca, axtarış və informasiyalaşma vərdişlərimiz də inkişaf etməkdədir. 2020-ci ildən etibarən tədrisi ingilis dilində olan iqtisadiyyat ixtisasına qəbulun keçirilməsi, biz gənclərə daha əhatəli dərs vəsaitlərinə, dərsliklərə və elmi mənbələrə istinad etməyimizə səbəb olmuşdur. Biz, yeni mərhələdə öz ixtisasımız üzrə mütəxəssis olaraq formalaşma imkanları əldə edirik. Keçdiyimiz bütün dərslər bizlərə ingilis dilini dərindən bilən iqtisadçı müəllimlər tərəfindən tədris olunmaqdadır. Hər bir müəllim dünya reallıqları müstəvisində iqtisadi yeniliklərlə elmi əsaslandırılmanın sintezindən ibarət olan mövzuları səlis və peşəkarcasına bizlərə öyrədir, tədris edirlər.

Mənim hələ tam orta məktəbdə təhsil alarkən iqtisadiyyat ixtisasına, iqtisadçı olmağa böyük həvəsim var idi. Hörmətli rektorumuzun rəhbərliyi altında ingilis dilində tədris olunmasını hədəfləyən bu ixtisasın açıldığını eşidəndə orada təhsil almaq üçün daha çox çalışmağa, öz biliyimi artırmağa başladım. 2021-2022-ci tədris ili üzrə 578,5 balla universitetimizə qəbul olmaq mənim üçün çox qürurverici oldu. Biz tələbələr ixtisasımız üzrə təhsil almaqla, istər universitetimizdə olan davamlı yenilikləri, istər muxtar respublikamızda təşəkkül tapan iqtisadi inkişaf dinamikasını, istərsə də, ölkəmizin milli iqtisadi quruculuq proseslərindəki yeni uğurların beynəlxalq arenaya ingilis dilində bəyan etmək imkanlarını əldə etməkdəyik. Çalışırıq ki, dərslərimizi daha yaxşı oxumaqla, bizlərə göstərilən etimada layiq olaq.

Ali məktəbimizdə son illərdə əldə olunan ardıcıl, sistemli və perspektivli uğurlar hər bir tələbənin gündəlik fəaliyyətində özünü göstərməkdədir. Tikintisi uğurla davam edən Texnopark növbəti kurslarda bizlərə yaradıcı ideyalara müəlliflik etmək üçün yaxından kömək edəcəkdir. Bir iqtisadçı olaraq, Texnoparka startap layihələrində iştirak edəcək və səmərəli olduğunu düşündüyümüz elmi cəhətdən əsaslandırılmış layihələrin təqdim olunması üçün ilkin addımlarımızı atacağıq. Orada biznesə bağlı olan struktur bölmələrin, sənaye sahələri üzrə fəaliyyət mühitinin, tədris otaqlarının, rezidentlərlə əlaqəli istiqamətlərin olması tələbələr üçün də əlverişli mühit deməkdir. Biz Texnoparkda öz təkliflərimizlə elmlə təcrübənin vəhdətinin və əlaqələndirilməsinin, eyni zamanda, səmərəli nəticələrinin şahidləri olacağıq. Gələcəkdə hər birimizin iş adamı, sahibkar, yaradıcı, menecer, istehsalçı və digər təsərrüfat fəaliyyəti ilə məşğul olan ixtisaslı kadr olmağımızda məhz Texnoparkın rolu böyük olacaq. Eyni zamanda, bütün bu potensialla, bütövlükdə, universitetimiz qeyri-maddi istehsal sahəsinin inkişafındakı rolunu artırır ki, bu da, cəmiyyət üzvlərinin daha firavan yaşayışına xidmət etməkdədir.

Bunlarla yanaşı, universitetimizin artıq qarşıdakı dövrlərdən etibarən ikili diplom layihələrinə start verməsi bizlərə daha böyük imkanlar yaradacaqdır. Bizə, bu vasitə ilə gələcəkdə xarici və nüfuzlu universitetlərdə də təhsil ala bilməyimiz daha əlçatan olacaqdır. Təhsil, tələbə, ixtisas, təcrübə və bilik mübadiləsinin ən səmərəli mexanizmləri məhz bu uğurlar əsasında reallaşacaqdır. Bu nailiyyət nəticəsində bundan sonrakı mərhələdə universitetimizin beynəlxalq əməkdaşlıqlarının inkişafında tələbələrin də fəal iştirakı mümkün olacaq və bu, nəticə etibarı ilə daha bilikli və savadlı gəncliyin formalaşmasına təminat vermiş olacaq. Elm və təcrübənin sintezi üçün bir mərkəz olan ali məktəbimiz biz tələbələrin yeni dünyagörüş əsasında formalaşmağımıza təkan olmaqdadır.

Ölkəmizin sosial-iqtisadi inkişafı sürətləndikcə, bütün sahələr kimi təhsil proseslərində də sosial mahiyyətli uğurların əhatəsi daha da genişlənməkdədir. Bu isə, öz növbəsində tələbələrin sosial müdafiəsinin güclənməsinə, beləliklə də, təhsil proseslərinin daha uğurlu təminatına yol açmaqdadır. Belə ki, 2021-ci ilin dekabr ayında Naxçıvan Dövlət Universitetində əldə olunan uğurlara bir yenisi də əlavə olunmaqla, təhsil alan 1200-ə yaxın birinci kurs tələbələrinə (buraxılış kursları istisna olmaqla bakalavriat və magistratura təhsil pillələrinin əyani şöbəsində təhsil alan ümumilikdə 3000-ə yaxın tələbə) smart kartlar təqdim olunmuşdur. İlk olaraq, qeyd etmək olar ki, bu, tələbənin statusunu təsdiq edən sənəd, onun tələbəlik kimliyi, əvvəllər mövcud olan tələbə biletidir. Bununla yanaşı, bu, biz tələbələrə ödənişlərin ölkə hüdudlarında və ondan xaricdə daha da sürətlənməsində və nağdsız həyata keçirilməsində, həmçinin təqaüdlərin alınmasında əlçatanlıq yaratmış olacaq. Eyni zamanda, tədris imkanlarından səmərəli istifadə olunması üçün universitet, kitabxana, oxu zallarına, digər ictimai və sosial məkanlara giriş üçün də istifadə olunacaq icazə hüququdur.

Qeyd olunanlar hər birimizi sevindirməklə yanaşı, həm də, universitetin ictimai işlərində, tələbələrlə bağlı olan tədbirlərində yaxından iştirak etməyimiz üçün motivasiya olacaqdır. Tələbə Elmi Cəmiyyətinin xətti ilə araşdırma mövzularının yerinə yetirilməsi, Gənclər Təşkilatlarında fəallıq göstərilməsi, milli ruhda böyüyən gəncliyin hərtərəfli perspektivliyə malik olması universitetimizdə yaradılmış əlverişli mühitin zəruri nəticəsi olaraq çox əhəmiyyətlidir.

Beləliklə, Naxçıvan Dövlət Universitetinin tələbələri yeni dövrün keyfiyyət mərhələsinin fəal iştirakçıları olmaqdadır. Yaradılmış əlverişli tədris imkanlarının təşəkkülü bütün fakültələrdə sağlam və etibarlı tədris proseslərinin güclü dayaqlarını yaratmışdır. Biz hər birimiz öz biliyimizlə, bacarıq və nümunəvi tələbə adı ilə göstərilmiş olan etimada layiq olmaq üçün əzmlə oxuyacağıq.

**Nazir Kəngərli**
***İqtisadiyyat və İdarəetmə fakültəsinin tədrisi ingilis dilində olan İqtisadiyyat ixtisasının I kurs tələbəsi***

# MUXTAR RESPUBLİKA MEDİASININ TARİXİ VƏ MÜASİRLİYİNİN FƏAL TƏBLİĞATÇISI – “ŞƏRQ QAPISI” QƏZETİ

“Şərq qapısı” qəzetinin 1990-cı il 26 iyul tarixli nömrəsində dərc olunmuş müsahibəsində Ulu öndər demişdir: “Mən “Şərq qapısı” qəzetinin təsiri altında tərbiyə almışam. Hələ gənc ikən burada orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün “Şərq qapısı”ndan çox istifadə etmişəm. O vaxtdan nüfuzlu qəzet kimi hafizəmdə qalıb”.

Ümumxalq mənafeyinə söykənən, maarifçilik ənənələrinin fəal daşıyıcısı “Şərq qapısı” qəzeti ictimai-siyasi fikir tariximizdə, milli-siyasi təfəkkürün formalaşması və inkişafında mühüm rola malikdir. Naxçıvanda qəzetçiliyin təməlini qoyan “Şərq qapısı”qəzeti 1921-ci ilin noyabrında Gənclər İttifaqının orqanı kimi “Cavanlar həyatı” adı ilə nəşrə başlamışdır. İlk vaxtlar vərəqə şəklində çap olunan “Cavanlar həyatı” qəzeti iki aya yaxın müddətdə fəaliyyət göstərib, 1921-ci ilin dekabrından etibarən Naxçıvanda “Füqəra səsi”, 1922-ci ilin aprel ayından isə “Şərq qapısı” adı ilə nəşr edilməyə başlayan qəzet müxtəlif tarixi mərhələlərdə ictimai-siyasi, ədəbi-mədəni proseslərin işıqlandırılmasında, millilik və maarifçilik ideyalarının təbliğində mühüm rol oynamışdır. Ötən əsrin 70-80-ci illərində “Şərq qapısı” qəzetinin gündəlik və böyük formatda nəşri təmin edilmişdir. Tarixən azərbaycançılıq ideologiyasına, milli məfkurəyə xidmət edən “Şərq qapısı” qəzeti XX əsrin 90-cı illərinin əvvəllərində Sovetlər Birliyində nəşr olunan ilk müstəqil mətbuat orqanı kimi tarixə düşmüşdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun qayğısı ilə “Şərq qapısı” qəzetinin 75, 80, 85 və 90 illik yubileyləri dövlət səviyyəsində qeyd edilmişdir.

Zəngin maarifçilik ənənələrinə söykənərək bu amal uğrunda mübarizə aparan “Şərq qapısı” qəzetinin ilk nömrəsinin nəşr olunmasından 100 il ötür. 1921-ci il noyabrın 9-da nəşrə başlayan qəzet muxtar respublikada maarifin, elmin və ictimai fikrin inkişafına öz töhfələrini vermiş, Naxçıvanda jurnalistika məktəbinin formalaşmasında mühüm baza rolunu oynamışdır. “Şərq qapısı” qəzeti informasiya blokadasının aradan qaldırılmasında və milli dövlət quruculuğu yolunda fəal mübarizlərdən biri olmaqla 1990-1993-cü illərdə isə görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycanın xilası naminə həyata keçirdiyi tədbirləri və qəbul etdiyi tarixi qərarları geniş xalq kütləsinə çatdırmışdır. Qəzetin böyük formatda nəşrinə hələ ötən əsrin 70-80-ci illərində ümummill iliderimiz Heydər Əliyevin qayğısı nəticəsində nail olunmuşdur. Məhz həmin dövrdə qəzetdə xalqımızın milli dəyərlərinə və mədəniyyətinə həsr olunmuş yazılar işıq üzü görmüş, 50 illik yubileyi qeyd olunmuşdur.

Müstəqillik illərində də qəzetin hər zaman maddi-texniki bazası gücləndirilmiş, yaradıcılıq imkanları genişləndirilmiş, rəngli nəşrinə başlanmış, yubileyləri dövlət səviyyəsində qeyd olunmuşdur.

“Şərq qapısı” muxtar respublika mətbuatının istiqamətləndirilməsi missiyasını uğurla icra edir. Qəzet müasir dövrümüzdə muxtar respublikanın sosial-iqtisadi və mədəni inkişafına öz töhfəsini verir. Qəzet eyni zamanda 2012-ci ildən etibarən www.serqqapisi.az saytı vasitəsilə elektron formada da öz oxucusuna xitab edir.

Bu gün “Şərq qapısı” qəzeti redaksiyasında istər jurnalist peşəkarlığı, istərsə poliqrafik keyfiyyət baxımından müasir tələblərə cavab verəcək müasir iş şəraiti yaradılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin orqanı olan, Mehriban Sultanın redaktorluğu ilə çap edilən "Şərq qapısı" qəzeti bu gün də Naxçıvan Muxtar Respublikasının canlı sözüdür. “Şərq qapısı”nın səhifələrində Naxçıvan diyarının mənzərəsi yaradılır. Qəzetin səhifələrində durmadan inkişaf edən, yeniləşən, müasirləşən Naxçıvanımızın parlaq, işıqlı gələcəyi tərənnüm olunur. “Şərq qapısı” ideyası və oxunaqlı yazıları ilə Naxçıvanın mətbuat tarixində özünəməxsus yer tutan qəzetdir. Artıq 100 yaşını qeyd edən mətbu orqan muxtar respublikamızın bir əsrlik tarixinə canlı şahidlik etmişdir. “Şərq qapısı” təkcə bu qəzetin müəlliflər kollektivi üçün deyil, çoxsaylı oxucuları üçün də istinad mənbəyi, keçmişimizi göz bəbəyi kimi qoruyan, gələcəyimizə işıq tutan dəyərli mətbuat orqanıdır. Keçmişə nəzər yetirəndə “Şərq qapısı” həm zəngin və qiymətli salnamə, həm də etibarlı “Şərq qapısı” fədakar ziyalılıq nümunəsi ilə cəmiyyətə örnək olan yaradıcı ziyalılarla bərabər, onlarla birgə çiyin-çiyinə addımlayan gənc kollektivlə möhtəşəm uğurlara imza atır.

“Şərq qapısı” qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə 2021-ci il 1iyun tarixli müvafiq Sərəncamın imzalanması və bu sərəncamla Tədbirlər Planının təsdiq olunması, bütövlükdə, muxtar respublikada kütləvi informasiya vasitələrinin inkişafına dövlət qayğısı olmaqla, milli mətbuatın cəmiyyətdəki, dövlətçilik tariximizdəki mühüm roluna verilən siyasi qiymətdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 2021-ci il dekabrın 17-də “Naxçıvan Muxtar Respublikası təltiflərinin verilməsi haqqında” sərəncam imzalayıb. Sərəncamla “Şərq qapısı” qəzetinin və “Əcəmi” Nəşriyyat - Poliqrafiya Birliyinin əməkdaşları Naxçıvan Muxtar Respublikasında mətbuatın inkişafında səmərəli fəaliyyətlərinə görə təltif ediliblər.




Səbuhi Elşad oğlu Həsənov və Muxtar Məmməd oğlu Məmmədov “Əməkdar jurnalist” fəxri adı ilə təltif ediliblər. Bundan başqa, Çingiz Cəfər oğlu Ağayev, Esmira Salman qızı Heydərova, Şərəf Nağı qızı Mənsumova və Əsədulla Müqəddəs oğlu Səfərov “Rəşadətli əməyə görə” nişanı ilə mükafatlandırılıb. Həmçinin, “Şərq qapısı” qəzetinin baş redaktoru Sultanova Mehriban Paşa qızına Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanı təqdim edilib.

Muxtar respublikada jurnalistika sahəsində kadr potensialının formalaşdırılmasına göstərilən diqqət və qayğının nəticəsidir ki, bu gün “Şərq qapısı”nda təcrübəli jurnalist həmkarlarımızla yanaşı, gənc əməkdaşlar da çalışır. Onlardan 2 nəfəri Naxçıvan Dövlət Universitetinin magistratura pilləsində təhsil almışdır. “Şərq qapısı” qəzeti hami təşkilat kimi Naxçıvan Dövlət Universitetinin “Jurnalistika və xarici ölkələr ədəbiyyatı” kafedrası ilə birgə muxtar respublikada ali təhsilli mütəxəssis hazırlığı, tələbə-jurnalistlərin mətbuatda çıxışlarının təşkili ilə bağlı tədbirlər həyata keçirməkdədir.

"Şərq qapısı" məktəbi anlayışı ilk növbədə bu qəzetin mühitində yetişib-formalaşan yaradıcı nəsilləri əhatə etməklə bərabər, həm də muxtar respublikada yeni mətbuatın da formalaşması və inkişafına yol açmışdır. Muxtar respublikanın rayon mətbuatı nümunələri, universitetimizin “Yeni fikir” qəzeti “Şərq qapısı” qəzetinin layiqli davamçılarıdır. Ali məktəb mətbuatının ilk nümunəsi olan, əvvəllər “Fikir” adı ilə nəşr edilsə də, hal-hazırda “Yeni fikir” adı ilə çıxan qəzet Azərbaycan ali məktəb mətbuatının inkişafında yeni addım olaraq “Şərq qapısı” ənənələri üzrə uğurla fəaliyyət göstərir.

Bu gün “Şərq qapısı”nın səhifələrində universitet mediası ilə qarşılıqlı əlaqələrin aydın təzühürünü görmək olar. Ali təhsil ocağında gedən bütün proseslər, keçirilən kütləvi mədəni tədbirlər doğma qəzetdə işıq üzü tapır. Muxtar respublikanın güzgüsü rolunu oynayan “Şərq qapısı” qəzeti universitet mediasının fəal təbliğatçısı olmaq missiyasını uğurla həyata keçirir.

“Şərq qapısı” qəzeti Naxçıvan Dövlət Universitetinin “Jurnalistika” ixtisasında təhsil alan tələbələrin hami təşkilatı olaraq öz missiyasını layiqli şəkildə icra edir. Universitetin mənəvi söz tribunası rolunu da şərəflə daşıyan qəzet təkcə ziyalıların deyil, həmçinin “Jurnalistika” ixtisasında təhsil alan tələbələrin üz tutduqları, öz qələmlərini sınadıqları mətbuat orqanıdır. Bütün kurslar üzrə təhsil alan tələbələr öz qələmlərini bu qəzetin səhifələrində sınayır, muxtar respublika media mühitində tanınmaq yolunda inamla addımlayırlar.

Qeyd edək ki, Naxçıvan Dövlət Universitetində “Jurnalistika” ixtisası üzrə təhsil alan tələbələr ali təhsil ocağının Media mərkəzində televiziya, radio sahəsində təcrübə əldə edirlər. Həmçinin universitetdə hər ay nəşr olunan “Yeni fikir” qəzeti tələbələrin azad fikir tribunasıdır. Jurnalist tələbələr semestr sonunda verdikləri sərbəst işlərini məhz qəzet səhifələrində yazılar yazmaqla, televiziya, radioda hazırladıqları verilişlər sayəsində yerinə yetirmiş olurlar. Beləliklə, tələbələr artıq IV kursu bitirdikləri zaman jurnalistika sahəsində nəzəri biliklərlə yanaşı təcrübi peşə vərdişlərinə də yiyələnmiş olurlar.

Son olaraq yazımı Ali Məclisin Sədri cənab Vasif Talıbovun “Şərq qapısı” haqda dediyi dəyərli fikirlərilə yekunlaşdırıram.

Bu gün tərəddüdsüz demək mümkündür ki, “Şərq qapısı” qəzeti Naxçıvanın muxtariyyət tarixini öyrənmək baxımından ən etibarlı mənbədir. Qəzetin 100 illik tarixində Naxçıvanın taleyi və müqəddəratı, çətinlikləri və uğurları əks olunub. İctimai nəzarət funksiyasını yerinə yetirən orqan kimi qəzet bu gün də muxtar respublikanın tanıdılması və təbliğində səmərəli fəaliyyət göstərir, sosial-iqtisadi və mədəni inkişafa öz töhfəsini verir. Qəzetçilik böyük zəhmət, xüsusi səy, peşəkar yanaşma, hadisələri obyektiv dəyərləndirmək, prosesləri qabaqlamaq və düzgün təhlil etmək bacarığı tələb edən sənətdir. Əgər ilk dəfə nəşrə başlayanda “Şərq qapısı” qəzetinin başlıca məqsədi cəmiyyətdə maarifçiliyə, elmi və mədəni tərəqqiyə nail olmaq idisə, bu gün qəzetin qarşısında bununla bərabər, həm də çevik informasiya siyasəti aparmaq, milli dəyərlərimizi, adət-ənənələrimizi təbliğ etmək, Azərbaycanın və onun Naxçıvan Muxtar Respublikasının inkişaf və quruculuq salnaməsini yaratmaq və tarixləşdirmək kimi mühüm vəzifələr durur.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# NAXÇIVANLI OLMAĞIN QÜRURUNU YAŞAYAN ŞAİR

İslam Səfərli Azərbaycan ədəbiyyatının inkişafında özünəməxsus xidmətləri olan şair, dramaturq, publisist və tərcüməçi kimi tanınır. Belə ki, müəllifin müxtəlif illərdə qələmə aldığı şeir və poemaları, dram əsərləri, oçerk, novella, libretto və kino ssenariləri, rus və türkdilli klassiklərin əsərlərindən etdiyi tərcümələri bu gün də tədqiqat obyektidir. İslam Səfərli yaradıcılığının əsas xüsusiyyətini ana dilinin saflığının qorunması təşkil edir. Bu amil özünü şairin poetik yaradıcılığında daha bariz şəkildə əks etdirir. İslam Səfərli hər zaman milli poetik ənənələrə sadiqlik nümayiş etdirmişdir.

“Nəğməkar şair” adlı xoşbəxtliyi yaşamış İslam Səfərlinin şeirləri özlüyündə bir musiqi, bir nəğmədir. Onun “Bakı, sabahın xeyir!”, “Ana”, “Bir könül sındırmışam”, “Ay öpüşən dalğalar”, “Yadıma düşdün”, “Nə vaxta qaldı”, “Bilmədin” kimi şeirləri bəstəkarların musiqisi ilə dillərdə əzbər mahnılara çevrilmişdir. Beləliklə, İslam Səfərli “Bakı sabahları salamlayan” ilk şair kimi tarixə düşdü:

Hörükləri qaradır,
Qaşları ayparadır
O bir aləm yardır,
Hamı ürəkdən deyir:
Bakı, sabahın xeyir!

Şairin sözlərinə mahnı bəstələnmiş sevilən şeirlərindən biri də “Ana” şeiridir. Bu şeirdə anaya bəslənən ən ülvi hisslər öz əksini tapmışdır.

Gözümün nuru, canım ana,
Böyütdün sən məni yan-yana.
Odlusan gül kimi, bir qaynar həyat kimi,
Borcluyam mən sənə, sənə bir övlad kimi,
Əziz ana.

Müxtəlif mövzulara müraciət etmiş şair doğma Naxçıvanı vəsf etməyi yaradıcılığının prioriteti hesab etmişdir:

Günlər keçir birəm-birəm,
Bir uğurlu yol gedirəm.
Yurdumuzu vəsf edirəm,
Əldə qələm, dizdə varaq
Mənə qalan bu olacaq.

Misralardan da göründüyü kimi yurdunu, vətənini vəsf etməyi özünə borc bilən İslam Səfərlinin yaradıcılığı hər zaman səmimiliyi, orijinallığı ilə diqqət mərkəzində olmuşdur. Naxçıvanın sevilib-seçilən sənətkarlarından olan İslam Səfərli doğma yurdunun hər daşından, qayasından, havasından, suyundan ilham alan şair kimi qəlblərdə özünəməxsus yer tutmuşdur.

Naxçıvanın gəzməli, görməli yerlərini tərənnüm edən nəğməkar şairin “Naxçıvanım”, “Xalxal meşəsi”, “Qızlar bulağı”, “Batabat bulağı”, “Badamlı”, “Ordubad” şeirləri ilə tanış olduqda Naxçıvan təbiətinə bir daha aşiq olursan. Misralar sanki oxucunu el-el, oba-oba gəzdirir, gözəlliklərlə tanış edir. Şair Naxçıvanda yerləşən Qızlar bulağını eyniadlı şeirində belə tərənnüm edir:



Dan sökülür,
Nur tökülür.
Üfüqlərin dodağından.
Gənclər durur,
Su doldurur
Bizim "Qızlar bulağı"ndan ...

İslam Səfərlinin Batabatı poetik boyalarla ifadə edən “Batabat bulağı” şeiri onu oxuyan hər bir oxucunu özünə cəlb edir. Beləliklə, o yerlərə, o düzlərə, o bulaqlara heyran qalmamaq mümkün deyil:

Vüqarlıdır zirvələrin, qaşların,
Üzə gülür qayaların, daşların.
Mən İslamam, öz səsimi quşların
Nəğməsinə qata-qata gəlmişəm,
Mərcan gözlü Batabata gəlmişəm.

Və yaxud “Xalxal meşəsi” şeirində şairin sözlə rəngli misralar araya-ərsəyə gətirdiyini görə bilərik. Bu misralardan meşələrin sərinliyi, sularının duruluğu aydın hiss olunur:

Vayxır çeşməsinin suları bumbuz,
Buluddan ay çıxdı, taladan ulduz.
Bir az da aşağı düşdü yolumuz,
Gəldi qulağıma quşların səsi,
A Xal-xal meşəsi, Xal-xal meşəsi!
***
Demirəm, uca bir dağ belindəsən,
"Aran meşəsi"sən el dilində sən.
Naxçıvan çayının sahilində sən,
Boy at, qoy İslamın gülsün nəğməsi,
A Xal-xal meşəsi, Xal-xal meşəsi!

İslam Səfərli “Gəlmişəm” şeirində Naxçıvanın doğma yurdu, baba yurdu olduğunu bir daha qürur, sevgi hissi ilə vurğulayır. Şair bu diyarı “Nəqşi-cahan” adlandırır:

Ovçu kimi mən dolana-dolana,
Qalxıb Araz qırağından bu yana.
Baba yurdum gözəl Nəqşi-cahana,
- Ana yurdum Naxçıvana gəlmişəm.

Naxçıvan torpağı tarix boyu öyrəniləsi, öyünüləsi dahiləri ilə dillər əzbəri olmuşdur. Ədəbi-mədəni mühitdə bu dahilərin tərənnümü hər zaman diqqət mərkəzində saxlanılmışdır. Səvimli şairimiz İslam Səfərli də şeirlərində yurdunun sənətkarlarını xatırlamağı unutmamışdır. Şairin “Naxçıvanım” şeiri bu mənada, oxucularda xoş təəssürat yaradır:

Gör nə çalır könül simi:
- Şerə verdim mən eşqimi.
Mirzə Cəlil, Bəhruz kimi
Sənətkarlı Naxçıvanım,
Xoş baharlı Naxçıvanım.

Vətəninə olan sevgisindən vəcdə gələn şair ulduzları da bu yurda səcdəyə çağırır:

Bu səs qanadında gəzdirir məni,
Bu söz ürəyindən qopur hər kəsin:
- Naxçıvan! Ey şerin, sözün vətəni,
Çağır, ulduzlar da səcdəyə gəlsin!

“Naxçıvanın duzu, qızı, qarpızı” şeirində şairin xoş, səmimi hisslərinin şahidi ola bilərik. Şeirdə maraqla qarşılanan, eyni zamanda, çox sevilən misralardan olan “Naxçıvanın duzu, qızı, qarpızı” ifadəsi artıq bir zərbi-məsələ çevrilmişdir:

Bura mənim öz yurdumdur, elimdir,
İlk baharın məxmər teli telimdir.
Xəzinədir qara torpaq sinəm tək,
Qaranquşlar nəğmə deyir gülərək,
Dad versə də arx üstündə arabir –
Pendir-çörək, yanında da qarpızı;
Ancaq bundan düzü min qat gözəldir
Naxçıvanın duzu, qızı, qarpızı.

Şairin poetik yaradıcılığı bugün də aktuallığını itirmir. İslam Səfərlinin ata-baba yurdu Naxçıvana həsr etdiyi “Xan Araz sahilində” silsiləsinə daxil edilmiş bütün şeirlərində şairin səmimiliyi açıq şəkildə hiss olunur. Bu şeirlər insanda kövrək hisslər oyatmaqla yanaşı, insana qürur hissləri aşılayır. Naxçıvana həsr olunmuş bu şeirləri oxuduqda oxucu bir daha bu yurdu sevir, bu elə bağlanır.

Rəssam fırçası ilə, şair qələmi ilə gözəllikləri vəsf edir. İslam Səfərli qələmi isə rəssam fırçası kimi doğma təbiətin rənglərindən ilhamlanaraq dərin koloritli yaradıcılıq meydana gətirmişdir. Bu yaradıcılıqla biz Vətənin yaşıl meşələrini, aydın səmanın maviliyini, güllərin al-əlvanlığını sevirik. Doğma yurdu-Naxçıvanı xüsusi məhəbbətlə sevən, onu daima ehtiramla yad edən İslam Səfərli hər zaman naxçıvanlı olmağın qüruru ilə yaşamışdır. Şairin yüksək bədii-estetik hisslər aşılayan poeziyası ədəbiyyatımız var olduqca yaşayacaq, hörmətlə anılacaqdır. Vətənpərvər şair İslam Səfərlinin şeirləri dillər əzbəri olmaqda davam edəcəkdir!

**Çinarə İsmayılova**
***Elmi Kitabxananın baş kitabxanaçısı***

# GƏNCLƏRİN VƏTƏNPƏRVƏRLİK RUHUNDA TƏRBİYƏSİNDƏ MƏMMƏD ARAZ ŞEİRLƏRİNİN ROLU

Hər bir tarixi mərhələdə tərəqqipərvər insanları ilk növbədə vətəninə və xalqına bağlı gənc nəsillərin təlim-tərbiyəsi ciddi şəkildə düşündürmüş, bu səbəbdən elmi-estetik fikrin diqqəti birbaşa insan konsepsiyasına yönəlmişdir.

Ölkəmizdə böyüməkdə olan gənclərin milli ruhda, milli zəmində tərbiyə olunması əsas vəzifələrdən biri kimi qarşıya qoyulduğu indiki şəraitdə Məmməd Araz yaradıcılığının təlim-tərbiyəvi əhəmiyyətini, gənclərdə milli şüurun inkişafına onun təsirini, bir sözlə ədəbi və pedaqoji irsini yaymaq çox vacibdir.

Məmməd Araz zəngin və çoxşaxəli yaradıcılığı ilə milli ədəbiyyatımızda öz sözünü deyən və əsərləri sevilə-sevilə oxunan, dillər əzbəri olan, ürəklərdə yer tapan bir şairdir. Xalq şairi Məmməd Araz Vətənə və sənətə həsr olunmuş əsl şair-vətəndaş ömrü yaşamışdır. Öz əsərləri ilə əsl vətəndaşlıq qeyrəti aşılayan, doğma Vətəni sonsuz məhəbbətlə sevən Məmməd Araz poeziyasını Azərbaycan torpağından, tariximizdən ayrı təsəvvür etmək mümkün deyil. Məmməd Araz şeiri bütün ruhu ilə Azərbaycan torpağına bağlıdır, onunla nəfəs alır. Adama elə gəlir ki, onun lirik qəhrəmanı üçün "Azərbaycan dünyasında" gizli bir nöqtə, açılmamış sirr yoxdur. Bu baxımdan xalq şairi Məmməd Arazın ölməz əsərləri qiymətli pedaqoji ideyaları yaşadan bənzərsiz sənət örnəkləri olmaqla xalqımızın bədii-estetik yaddaşında xüsusi yer tutmaqdadır.

Məmməd Arazın bütün səy və cəhdi bir məqsədə–insanların, xüsusən gənc nəslin əxlaqi cəhətdən yüksəlməsinə yönəlmişdir. Onun şeirləri insan şəxsiyyətinin və cəmiyyətin inkişafına mane olan qüvvələrə qarşı mübarizə aparmaq üçün oxucunu insanpərvərliyə, xeyirxahlığa, dostluğa, vətənpərvərliyə çağırır. Fikirlərin sanki sözlərin boyuna biçildiyi bu şeirlərdə doğma kökə bağlılıq, qoynunda ərsəyə çatdığı torpağa vurğunluq, xalq taleyinin dolanbac yolları haqqında fəlsəfi düşüncələr öz dolğun bədii əksini tapmışdır. Məhz elə gənc nəslin bu ideyalar ruhunda tərbiyələnməsi çox böyük əhəmiyyətə malikdir.

Böyük vətəndaşlıq qayəsi, Vətən torpağının əzabına, ağrısına qatlaşmaq, Azərbaycan torpağının vətəndaşlıq yükünü çəkmək - Məmməd Araz poeziyasının əsas gücü və qüdrəti bundadır:

Bir şair arzusu görən, nə deyir,
Bir ümid istərmi qəlbi şən olsun?!.
O dərman istəmir, Vətən istəyir!
Dərdli, yoxsul olsun – tək Vətən olsun...

Şairin şeirlərinin ana xəttini azadlıq, müstəqillik, vətənsevərlik hissləri təşkil edir. Məmməd Araz sovetlər dövründə Azərbaycan ədəbiyyatında hamıdan əvvəl "Məndən, səndən ötən zərbə, Vətən, Vətən – sənə dəydi" nidasını milli şeirin böyük enerjisi, var gücü ilə səsləndirə bilmişdir. Məmməd Araz şeirləri mənəviyyatımızdan tutmuş, ictimai mühitimizə, hətta sərhəd xətləri və cəbhə bölgələrimizə qədər hər yerdə əks-səda tapmışdır.

Məmməd Arazın poeziyası başdan-başa vətənə məhəbbət, vətəndaşlıq ideyaları ilə yoğrulmuşdur. Məmməd Araz "Vətən mənə oğul desə" şeirində vətən qarşısında məsuliyyətini, borcunu, üzərinə düşən öhdəliklərini, vəzifələrini dərindən dərk etdiyini anladır. Sadəcə, Vətənin ona oğul deməsini özü üçün ən böyük xoşbəxtlik sayır, vətən qayalarında adi bir mamır kimi bitməsi də ona kifayətdir:

Vətən mənə oğul desə, nə dərdim,
Mamır olub qayasında bitərdim.
Bu torpaqsız harda, nə vaxt, nə dərdim-
Xəzanımdır, xəzanımdır, xəzanım.

Bu, fikrimizcə, vətəndaşlığın ən uca zirvəsinə çatmağın konkret yolu, müəyyən mənada düsturudur. Məhz bütün ömrü boyu bu ideyaları təbliğ edən Məmməd Arazın ədəbi və pedaqoji irsini yaymaq çox vacibdir.

Şair "İnsan qayalar" şeirində qəti şəkildə vurğulayır ki, vətənin torpağını, dağını, daşını, dərələrini, ucsuz-bucaqsız çöllərini, kəhraba zəmilərini və s. sevmədən, vətənin daşına dönüb onu qorumadan ölkə vətəndaşı ola bilməzsən:

Qayaların keçmişini
qayalara yazdım, deyə.
Onda Vətən sanar məni
Bir balaca Vətən daşı,
Vətən daşı olmayandan
olmaz ölkə vətəndaşı...



Vətəni xoş güzəran, firavan həyat, imtiyazlar üçün sevmirlər. Əgər kimsə düşmənin ayağına ilişib onu yıxan daş, əsgərimizi güllədən qoruyan bir qaya parçası qədər xalqa xeyir vermirsə, ondan əsl vətəndaş ola bilməz.

Xalqın gələcək taleyinin böyüyən nəslin vətəndaşlıq tərbiyəsindən asılı olduğunu aydın dərk edən şair "Ayağa dur, Azərbaycan" şeirində babaların dilindən Azərbaycan xalqının hər bir nümayəndəsinə, bütün mərd oğullara müraciət edərək vətənimizin dar günündə "Ayağa dur" – deməklə Vətəni qorumağa, düşmən tapdağı altında olan torpaqlarımızı azad etməyə, lazım gələrsə Vətən uğrunda canından keçməyə hər an hazır olmağa çağırır:

Nə yatmısan, qoca vulkan, səninləyəm!
Ayağa dur, Azərbaycan, səninləyəm!
Səndən qeyri
biz hər şeyi bölə billik!
Səndən qeyri
biz hamımız ölə billik!

Şair yetişən nəs–lə bu fikri təbliğ edir ki, Vətəndən başqa hər şey bölünə bilər. Vətəndən başqa hər kəs, hər şey ölə bilər. Amma Azərbaycan ölə bilməz, Azərbaycanı bölmək olmaz. Şair eyni zamanda Azərbaycanın "vulkan" kimi yatmış vətən oğullarına müraciət edir və onları "vulkan" kimi püskürərək Vətənin müdafiəsinə qalxmağa, işğal altında qalmış torpaqlarımızı azad etməyə çağırır. Bu çağırış vətənin hər bir övladına ünvanlanırdı. Şair haqlı olaraq qeyd edirdi ki, milli qüruru, milli qeyrəti olan hər bir insan vətənin dar günündə ayağa qalxaraq Vətən deməlidir.

Şair yaxşı bilir ki, Vətəni sevən, lazım gələrsə onu azadlığı uğrunda canından hər an belə keçənlər "bir daşa da minnət qoyub, pay ummayacaq":

Öz şöhrəti heykəlinə dəmir əridən
Vətəndaşın vətəni də bir evdir ancaq.
Vətən üçün can əridən, ömür əridən –
Bir daşa da minnət qoyub, pay ummayacaq.

Və yaxud:

Bir şair arzusu görən, nə deyir,
Bir ümid istərmi qəlbi şən olsun?!.
O, dərman istəmir, Vətən istəyir!
Dərdli, yoxsul olsun – tək Vətən olsun...

Şairin "O, dərman istəmir, Vətən istəyir!", "Dərdli, yoxsul olsun – tək Vətən olsun" kimi misralarla Vətənə olan hədsiz sevgisini göz önünə gətirir. Bütün bunlar hər bir yeniyetmə və gəncə mənəviyyat bütövlüyünü dərindən dərk etdirən keyfiyyətlərdir. Elə bu mənada da Məmməd Araz yaradıcılığının əsas cəhətlərini bu istiqamətə yönəldir və vətənpərvərlik ruhlu şeirlərilə xalqı mübarizəyə səsləyərək deyirdi ki, Azərbaycan torpağı hər birimizin son kəfəni olmalıdır:

Mən illər dəniyəm, illər – dənimdi,
İllərə qəniməm, illər qənimdi.
Azəri torpağı son kəfənimdi,
Doymaram bu qara bezimdən mənim.

Şair Vətən mövzusunda yazdığı şeirlərlə milliliyin dərk olunmasına, xalqımızın mənlik şüurunun güclənməsinə, yurddaşlarımızın özünüdərkinə güclü təsir göstərmişdir. Şəxsiyyət məhz milli mənlik şüuru vasitəsilə öz millətinə və Vətəninə bağlılığını ifadə edən hissləri və ideyaları öz daxili dünyasına və öz "mən"inə çevirir".

Məmməd Araz yaradıcılığı boyu bu fikri təbliğ edir ki, hər bir vətəndaş vətənin, xalqın azadlığı, torpaqlarının bütövlüyü uğrunda dayanmadan fəal, ciddi mübarizə aparmalıdır. Şairin şeirlərinin ideya xəttindən də aydın olur ki, onun məqsədi vətəni, xalqı müdafiə edən, düşmənə qarşı mübarizə əzmi olan, torpaqları yad nəzərlərdən qorumağa və torpaq uğrunda hər an belə canından keçməyə hazır olan mərd, mübariz vətənpərvərlər yetişdirməkdi. Bu məqsədlə şair "Bizi vətən çağırır" şeirində Vətənin müdafiəsinə qalxmağa, fədailik və fədakarlıq göstərməyə, onun uğrunda hər şeydən keçməyə və hətta ölməyə belə hər bir vətən övladı hər an hazır olmalıdır deyir:

İndi bizim ölümlə,
Çarpışan çağımızdı.
Ölümün boğazından,
Yapışan çağımızdı.
Ölümlə tərcümansız
Danışan çağımızdı.
Qılınc qap, Vətən oğlu,
Bizi Vətən çağırır!

Məmməd Araz bir daha xatırladır ki, xalq, cəmiyyət, milli dövlətçiliyimiz qarşısında öz məsuliyyətini dərindən dərk edən yetişən nəsil Vətən torpağını qorumalı və onun keşiyində dayanmalıdır. "Nəğmə" şeirində şair bu fikri çatdırır ki, xoş sabah və azad gələcək üçün hər bir Vətən övladı torpaqlarımızı qorumağa və lazım gələrsə canından keçməyə hər an belə hazır olmalıdır. Şeirdə Vətən torpağını qorumağın müqəddəs bir borc olması ideyası önə çəkilir və qeyd edilir ki, Vətəni, torpağı yaşadan ayıq başlar olacaq:

Oyan, qalx, Azərbaycan!
Taleyinə yaxşı bax.
Bu torpağı yaşadan
Ayıq başlar olacaq.

"Araz ordan, Kür də burdan aşıb-daşdı", "Son sözü də ya Vətən, ya vətəndaşdı" – deyən şairin bu kimi vətənpərvər ruhlu şeirləri bu gün də ideya dəyərini, tərbiyəvi əhəmiyyətini itirməyərək gənc nəslin vətənə məhəbbət ruhunda yetişməsində və tərbiyə olunmasında böyük rol oynayır. Bunu ölkəmizin arazi bütövlüyü uğrunda- Azərbaycanın əzəli və əbədi torpağı olan Qarabağ uğrunda canından keçən Vətən övladlarının qəhrəmanlığı bir daha sübut etdi. Xalqımızın igid oğullarınının - əsgərlərimizin, canı, qanı bahasına torpaqlarımız işğalçılardan azad olundu. Bu Qələbə döyüş meydanında şəhidlər verilərək qazanıldı.

Bir daha əmin olduq ki, milli müstəqillik və milli azadlıq mübarizəsində yetişən nəsildə yüksək vətənpərvərlik keyfiyyətlərinin formalaşdırılmasında Məmməd Arazın dəyərli, milli mənəviyyatlı poeziyasının təsiri böyük olmuşdur.

**Mehparə Əhmədova**
***pedaqogika üzrə fəlsəfə doktoru***

# PARILTISINI HİSS ETDİRMƏYƏN QIĞILCIM

Müdriklik ilk növbədə ali şüurun vəziyyətidir. Bu vəziyyətdə olanlar hər şeyin insanın təkamülü üçün olduğunu anlayırlar. Şüurun bu yüksəlişi ilə insan həyatın döyüş meydanı deyil, inkişaf prosesi olduğunu anlayır. Bunu anlayandan sonra isə daim tərəqqi və inkişaf üçün çalışır hər kəs. Belə müdrik insanlardan biri də Qurbanəli Şərifzadə idi.

1854-cü ildə Naxçıvanda ailəsini bağbanlıq etməklə dolandırmağa çalışan Hacı Ələsgərin ailəsində dünyaya göz açan Qurbanəli maddi çətinlik üzündən təhsil ala bilməmişdi. Məktəbə getməməsinə baxmayaraq öz səyi ilə nəinki oxuma-yazma, hətta bununla yanaşı rus və fars dillərini də öyrənmişdi. Gənclik vaxtlarından şəfalı bitkilər toplayaraq satmaqla ailəsinin ehtiyaclarını ödəyən Qurbanəli həm də bir ədəbiyyat sevdalısı idi. O, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Mirzə Ələkbər Sabir, Hüseyn Cavid, Sultanməcid Qənizadə, Firudin bəy Köçərli, Ömər Faiq Nemanzadə, Əli İsgəndər Cəfərzadə, Hacı İbrahim Qasımov, Tağı Şahbazi Simurq və Salman Mümtaz kimi ziyalılarla dostluq edirdi. Bu dostluq onu zamanla mollanəsrəddinçilər ədəbi mühitinə düşürür. Q. Şərifzadə özünün ədəbi - ictimai və publisist fəaliyyətində dövrünün ictimai ziddiyyətlərindən yazmağı, maarif və mədəniyyəti inkişaf etdirməyi, milli tərəqqiyə nail olmağı vacib hesab edirdi.

Müdrik ziyalının ilk məqaləsi "Naxçıvandan məktub" başlığı ilə "İrşad" qəzetində çap olunmuşdu. Qurbanəli Şərifzadə bu məqaləsində insanları "cəhalətin dərdinin dərmanını" tapmağa çağıraraq yazırdı: "Əgər daha bir də qəflət edib cəhalət dərdinin dərmanını tapmasalar o vaxt " nə bər morde, bər zende bad gerist" (ölüyə yox, diriyə gərək ağlayasan).

Məqalələrində maarif və milli mədəniyyəti təbliğ edən ziyalı eyni zamanda satirik felyetonları ilə də cəhalət və geriliyi, dini xurafatı tənqid edirdi. Onun "Məscidlərimiz" adlı felyetonunda müsəlmanların acınacaqlı aqibəti təsvir olunmuş və bütün bunların arxasında isə cəhalət və savadsızlığın durduğu vurğulanmışdı.

Böyük ziyalının "Molla Nəsrəddin" jurnalında "Hacıleylək " imzası ilə çap olunmuş "Qiyamət qopar?" satirik tənqidi üslubda yazılmış felyetonunda da dövrünün eybəcərliklərini qələmə alaraq yazdığı "Mənə nə dəxli var din əldən getdi, ya vətən payimal oldu? A canım, bircə mənə de görüm, islam aləmi yatsa, ya batsa qiyamətmi qopar? Əgər məktəbimiz olmasa, elmimiz olmasa qiyamətmi qopar? Əgər cəhalət dərimizi soya, ya maymun kimi boynumuza zəncir salsa, ya ulaq kimi başımıza nota vursa, qiyamətmi qopar? " cümlələrdə vətən üçün, el üçün çəkdiyi ürək ağrısını aşkarca görmək mümkündür.

Çoxlarımız onu Z. Marağayinin "İbrahim bəyin səyahətnaməsi"nin təsiri ilə yazılmış "Mozalan bəyin səyahətnaməsi" əsərindən tanıyırıq. Çünki "mozalanı" İrəvan və Naxçıvan tərəflərində Qurbanəli Şərifzadə gəzdirdi.

Böyük ziyalının həyatını araşdırdıqda şahid oluruq ki o, sədaqətli dost və fədakar insan olub. O, heç bir zaman öz dostlarına maddi köməkliyini də əsirgəməyib. Mirzə Cəlilin Q. Şərifzadəyə yazdığı bir məktubda da bu fakt öz əksini tapır. Məktubda yazılmışdı: "Sən mənə yazırsan ki, teleqrafı alan kimi mənim ağama aparıb iyirmi manat verdin (C. Məmmədquluzadə bu məktubda ağam dedikdə atası Məmmədqulunu nəzərə çatdırır). Mən bilmirəm bu barədə sənə nə deyim. Deyim əgər "çox razıyam", bu, həmişə eşitdiyimiz sözdür, adəti sözdür. Hamısından yaxşı burada mən bir neçə nöqtə qoyum...



Teleqrafda yazmışdım ki, kağız gözlə. Həmin kağızda sənə yazacaqdım ki, ağam mənə yazmışdı ki, ona xərclik göndərim. Mən də mümkün eləmədim. Axır gəldi oldu çərşənbənin günü və ağam yadıma düşdü. Ürəyim o qədər sıxıldı ki, az qaldım ağlayam. Axırda sən yadıma düşdün və sənə teleqraf elədim və bu teleqrafı da mən çox çətinliklə göndərdim. Çünki yaxşı bilirdim ki, heç haqqım yoxdur səndən pul istəməyə. Hələ mən səndən on iki manat da bir almışam və Naxçıvandakı borcumu da, heç bilmirəm, Məşədi Heydər verib ya yox?"

Bunlardan əlavə, "Molla Nəsrəddin" jurnalı maddi böhran keçirdiyi zaman C.Məmmədquluzadə ilk növbədə Q. Şərifzadədən kömək istəyər və o da hər dəfə jurnalı bağlanmaq təhlükəsindən qurtararmış.

Naxçıvanda həm də xeyriyyəçi kimi tanınan Q.Şərifzadə Hüseyn Cavidin "Məktəbi-Tərbiyə"də oxumasında da, Türkiyədə təhsil almasında da böyük rol oynamışdı. Hələ Hüseyn Cavid Məhəmməd Tağı Sidqinin yeni üsullu məktəbində, "Məktəbi-Tərbiyə"də oxumağa həvəslənəndə və atası buna qarşı çıxanda o, molla Abdulladan çox çətinliklə də olsa, razılıq alıb Hüseynin "Məktəbi-Tərbiyə"də oxumasına kömək etmişdi. Hətta H.Cavidin Türkiyədə təhsil aldığı müddət ərzində də Q. Şərifzadə ona maddi və mənəvi köməklik göstərməyə davam etmişdi.

Yaşadığı dövrdəki cəhalət və geriliyə dözməyən Qurbanəli Şərifzadə də qabaqcıl ziyalıları ilə birlikdə elmin, təhsilin rolunu əsas tutaraq, cəmiyyəti bu işə cəlb etməyə çalışırdı. Yaşadığı çətinliklərə, maneələrə baxmayaraq, savadsızlığı ləğv etmək uğrunda yorulmadan mübarizə aparırdı.

Onun ən dolğun portretini isə Q.Şərifzadənin ölüm səbəbi ilə yazdığı nekroloqda H. Cavid təsvir etmişdi. Həmin nekroloqda yazılırdı: "Səmimi millət xadimlərindən biri də tərki-həyat etdi. Əvət, Qurbanəli Şərifzadə həzrətləri də sönüb getdi, həm də bilirməsini, parlamasını sezdirməyən bir qığılcım kimi söndü. Qafqazyanın bir çox mühərrirləri, ədibləri, sənətkarları və millət xadimləri mərhumu yaxından tanır və dadlı müsahibələrindən xoşlanardı... Mərhum vaxtında bir çox qəzetlərdə iştirak edir, bəzi səmimi cəmiyyətlərdə çalışır, həqiqi bir millətsevər ruhilə kəndi irqdaşlarını düşünürdü. Lakin bir dürlü səsi çıxmazdı, çünki gurultudan, nümayişdən, alqışdan pək də xoşlanmazdı.

"Sağ əlinlə verdiyini sol əlin duymasın!.." üsuluna ən çox riayət edən, sadiq, fədakar, həmiyyətli bir sima idi... Bir an, əvət, bir an belə elm və maarif günəşinə pərəstiş etməkdən geri durmazdı... Onda son dərəcə böyük bir istedad və məziyyət var idi. O da böyük bir mübəlliğ, qəhrəman bir rəhbər olması idi...".

Maarif təşnəsi olan Q. Şərifzadə sözün həqiqi mənasında mədəniyyətimizin sönməyən ulduzu idi. Onun aydınlıq ömür yolunu nə qədər çox öyrənsək bir o qədər şey qazanmış olacağıq.

**İlahə Allahverdiyeva**
***Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

# PASSİV SİQARET "ÇƏKMƏ" VƏ FƏSADLARI

Yanan bir siqaret, onu çəkən adamın verdiyi tüstülü nəfəs qarışığı havada həmin adamın ətrafında siqaret dumanı yaradır.Belə mühitdə siqaret çəkməyənlər-uşaqlar, böyüklər, yaşlıların bu tüstülü hava ilə nəfəs alması passiv siqaret çəkmə adlanır. Siqaret çəkilən zaman ətrafa ya-



yılan dumanda 4000-dən çox kimyəvi maddə olduğu sübut olunmuşdur. Bu maddələrin içərisində 40-a yaxını xərçəng yaradan tərkiblidir.

Passiv siqaret çəkməyə məruz qalanlar, ailəsində bir və ya iki siqaret çəkən şəxsin olması və ya hər hansı bir məkanda-iş yerlərində, məclislərdə, ictimai yerlərdə olanlardır. Ən yüksək risk altında olanlar hamilə qadınlar, bətndaxilindəki döl, kiçik yaşlı uşaqlar və yaşlılardır. Xüsusilə, 0-5 yaşadək uşaqların 50-65%-inin inkişafda olan beyin toxuması və ağciyərləri zərər görür. Ən azı evdə bir siqaret çəkən insanın olması evdəki digər ailə üzvlərinin passiv siqaret çəkmələrinə səbəb olur.

Belə ailələrdəki uşaqlarda sinuzit, rinit, kistik fibroz, xronik tənəffüs çatışmazlığı baş verir. İki yaşın altındakı uşaqlarda bronxit və zökəmin yaranma ehtimalı artır. Bir gündə 10 və artıq siqaret çəkən valideynin uşaqlarında tənəffüs yolu xəstəliklərindən xəstələnmə hallarına digərlərindən 2 dəfə artıq rast gəlinir. Belə uşaqlar həm də qulaq ağrılarına və qulaq xəstəliklərinə məruz qalırlar. Siqaret dumanı burun arxası ilə orta qulağı bir-birinə birləşdirən Yevstax borusunu təhriş edir. Nəticədə orta qulaqda maye yığılması baş verir. Qulaq iltihablaşır. Passiv siqaret çəkən uşaqlar intellektual cəhətdən geri qalmış olurlar. Dünyada hər il özü siqaret çəkməyən, ancaq siqaret çəkənlərin əhatəsində yaşayan 3000 insan ağciyər xərçəngindən ölür. Çünki siqaret dumanında xərçəng əmələ gətirən maddələr hava kirliliyinə səbəb olan digər məhsullardan 100 qat artıqdır. Bütün bu və bunun kimi faktlarla rastlaşan insan düşünür ki, kaşki mən də siqareti tərgidə biləydim.Ancaq, çox iradəli insanlar bir dəfə siqaret çəkməyəcəyəm deyib siqareti tərgidirlər.

Mark Twenin siqareti buraxmaq haqda dediyi bir söz bəzən xoş qarşılanmasa da əslində siqareti tərgitməyin effektiv üsullarından biri oldu. "Siqareti buraxmaq çox asandır, mən yüzlərcə dəfə siqareti tərgitmişəm!" Bəzi iradəli insan üçün siqareti bir dəfədən tərgitmək asan ola bilər. Amma çoxları üçün bu elə də asan olmur. Çünki, siqaret və nikotin asılılığı siqareti tərgitməyə mane olur.

Müxtəlif səhiyyə təşkilatları, alimlər siqareti tərgitməyin ən yaxşı üsulunu tapmaq üçün çoxsaylı araşdırmalar aparmışlar. Bunlara siqareti tərgitmək üçün saqqızlar, plastrlar, konfetlər, dərman preparatları aiddir. Ancaq siqareti tərgitməyin iradə gücündən asılı olduğunu bilənlər fasiləli siqaret tərgitmə üsulunu məsləhət görürlər.

Əvvəlcə insan ayda 1 gün siqaretsiz və siqaret dumanı olmayan gün təyin edir. Sanki, özünə və ailə üzvlərinə dumansız, təmiz hava bəxş edir. Bir müddətdən sonra siqaretsiz və dumansız günləri 3 və ya 5 günə çıxardır. Buna görə də, Mark Tvenin zarafat kimi görünən sözləri fasiləli siqaret tərgitmə üsulunun əsasını qoydu. Yüzlərlə insan bu üsuldan istifadə edərək siqaret aludəçiliyindən və ailə üzvlərini passiv siqaret istifadəçiliyindən qurtardılar.

Koronavirusla mübarizə aparan dünyamızda aldığımız hər nəfəs bizi ölümə və ya sağlamlığa aparır. Bunun üçün də sağlamlığımızın pozulmasına təsir edən faktorlardan olan siqareti öz həyatımızdan və yaxınlarımızın həyatından ÇIXARAQ!!!

**Gültəkin Əliyeva**
***"Ümumi təbabət və klinik fənlər" kafedrasının müdiri, tibb üzrə fəlsəfə doktoru, dosent***

# BOSTAN KƏLƏMİ- VİTAMİN VƏ MİNERALLAR

İnsan sağlamlığının qorunmasında sağlam qidalanmanın rolu böyükdür. Buna görə gündəlik qida rasionunda orqanizm üçün faydalı olan qida məhsullarından, xüsusilə də meyvə və tərəvəzlərdən bol miqdarda istifadə etmək lazımdır. Belə ki, hər



fəsildə təbiətin bizə bəxş etdiyi nemətlərdən olan kələmin faydalarını saymaqla bitməz. Əgər bu cür vitamin və mineral deposu olan tərəvəz vətənimizdə çox yetişirsə, biz niyə onun faydalarından istifadə etməyək?

Kələmin növləri çoxdur. Lakin, ağbaş bostan kələmi orqanizm üçün müstəsna əhəmiyyətə malikdir. Belə ki, ağbaş bostan kələminin tərkibi çox yaxşı öyrənilmişdir. Gündəlik qida rasionunda bu bitkidən istifadə edən insanların bir sıra vitamin və minerallara olan tələbatının müəyyən qədər hissəsi ödənmiş olur. Çünki kələmin yarpaqlarında A,B,C vitaminləri, karotin, fol turşusu, pantoten turşusu kimi vitaminlər, K, P, Ca mikroelementləri, azotlu və azotsuz birləşmələr, yağlar, liflər və su vardır.

Tibbi təcrübədə kələmin mədə yarası əleyhinə olan xüsusiyyətlərinə və tərkibindəki U vitamininə görə qastroenteroloji müalicədə mədə və onikibarmaq bağırsaq yarasında, yaralı kolit, ağciyər vərəmində, qaraciyər xəstəliklərinin müalicəsində geniş istifadə olunur.

Kələmin kökü və zoğu şiş əleyhinə vasitə kimi, toxumları isə oynaq ağrılarında, Podaqra xəstəliyində və sidikqovucu kimi istifadə olunur. Təzə yarpaqlar irinli yaraların, kəsiklərin, şişlərin sağaldılmasında və masteopatiyalı süd vəzinin üzərinə qoyulmaqla müalicədə istifadə edilir.

Dərinin iltihabi proseslərində, yanıqlarında yara sağaldıcı kimi effekt göstərir.Təzə hazırlanmış kələm şirəsi gündə 3 dəfə yarım stəkandan, yeməyə 20-40 dəqiqə qalmış içilərsə mədə yarasının sağalmasına yardımçı olur. Yavaş-yavaş dozanı 1 stəkana da çatdırmaq olar.

Həmçinin, bu şirələri hazırlamaq üçün apteklərdə quru kələm tozu da satılır. Bu tozdan 1 çay qaşığı yarı stəkan suda həll edib qəbul etmək olar. Gündə 3 dəfə olmaqla 1 ay kurs təkrarlanır. 6 aydan sonra müalicəni təkrarlamaq olar. Ancaq torpaqlarımızda bitən təzə kələmin şirəsindən istifadə etmək daha məqsədəuyğundur.

Gündəlik qidalanmada yeməklərimizlə yanaşı, kələm salatından da çox istifadə etmək həzm sistemimizi bir sıra xəstəliklərdən qoruyar. Bunun üçün belə bir sadə kələm salatından istifadə etmək olar. Bu salatdan həzm sistemində başqa xəstəlikləri olmayan şəxslər daha rahat istifadə edə bilərlər. Təzə kələm, kök, təzə xiyar, baş soğan,cəfəri, sirkə (və ya limon suyu) duz, istiot, zeytun yağı qarışdırılaraq yemək olar.

**Sara Rəhimli**
***"Ümumi təbabət və kliniki fənlər" kafedrası***

Kök -ikillik bitki olub 1- ci il vegetasiya üsulu ilə yerüstü hissəsi və kökü inkişaf edir, 2-ci ildə toxum verir. Praktik olaraq hər yerdə yetişdirilməsi mümkün olan bitkidir.

Kök-tərkibində bol miqdarda A vitamini ilə yanaşı B,C,D,E vitaminləri olan əvəzolunmaz bir bitkidir. Eyni zamanda insan orqanizminə xeyir verən bir sıra xüsusiyyətləri var. Bunlara diş ətinin yaraları, dəri və selikli qişalara, qaraciyərə ürəyə damargenişləndirici təsirinə görə xeyirli bitkidir. Ateroskleroz və stenokardiyası olan şəxslərə kök salatı yemək və şirəsi içmək məsləhət görülür. Qan azlığında, gözün torlu və selikli qişasında toyuq korluğunda müvəffəqiyyətlə istifadə olunur. Bişmiş kök kolitlərin müalicəsində, ağız boşluğunun mikroflorasının yaxşılaşdırılmasında, sidik və öd axarının normallaşdırılmasında iştahın artırılmasında süd verən anaların südünün artırılmasında əvəzsiz tərəvəzdir. Eyni zamanda sinir sisteminə yaxşı təsir edərək immunitetin qalxmasına kömək göstərən bir vasitədir. Bütün endokrin vəzilərin fəaliyyətini tənzimləyir. Qəbizlikdə və qurd qovucu vasitə kimi istifadə olunur. Dərinin iltihabi xəstəliklərində də istifadə olunur.

Kökün 100 qr tərkibində:

| | |
|---|---|
| 28 q - su | 55 q – fosfor |
| 1,3 q – zülal | 700 q – dəmir |
| 0,1 q – lipid | 5 mq - yod |
| 9,3 q – karbohidrat | 2 mkq – kobalt |
| 0,6 q – nişasta | 2 mkq – manqan |
| 0,6 q – pektin | 80 mq- mis |
| 200 q – kalium | 20 mq molibden |
| 51 q - kalsium | 55 mkq flor |
| 39 q - magnezium | 40 mkq mis |
| 21 q – natrium | 40 mkq sink |
| 5 mq vit C | 8 mq B qrup vit |

Kökdən eyni zamanda efir yağları alınır ki, bunlardan da quru təmizləmədə, qadınlarda aylıq funksiyanın tənzimlənməsində, öd qovucu, əsəb sistemini tonuslandıran qaraciyər və öd kisəsinin fəaliyyətini yaxşılaşdıran, qanda hemoqlobini artırıcı, yara sağaldıcı vasitə kimi istifadə olunur.

Eyni zamanda kökün tərkibində karotinoid maddəsi vardır ki, bu da qan şəkərini və insulin dirəncini nizamlayıcı təsirə sahibdir. Şəkərli diabeti nizamda saxlayan kök antiseptik xassəsi ilə qaraciyərə yaxşı təsir edir. Aşağı kaloriyə sahib olduğundan kök eyni zamanda toxluq hissi yaradaraq arıqlamaq və diyet saxlayan insanlar üçün xeyirli bir vasitədir.

Onkoloji xəstəliklərə qarşı yüksək təsirə malikdir. Beta karotin onkoloji xəstəliklərə səbəb olan sərbəst radikalların əmələ gəlməsini dayandıraraq ümumi sistemi gücləndirir. Kökün prostat xərçənginə qarşı xüsusiyyəti də araşdırılmışdır. Siqaret istifadə edən və mütəmadi kök yeyən insanların siqaret istifadə edib kök yeməyən insanlara nisbətən onkoloji xəstəliklərə az yoluxduğu isbat olunmuşdur.

A vitamininin çatışmamazlığı bəzi göz problemlərinin

# TƏBİƏTİN NARINCI MÖCÜZƏSİ

ortaya çıxmasına səbəb olur. Yaşlılıqdan irəli gələn göz xəstəliklərinin də qorunmasında əvəzolunmaz təbii vasitədir. Katarakta yoluxma riskini azaldır. Dəri, saç və dırnaqlarda vitamin çatışmamazlığında ortaya çıxan quruluq və zəifliyi aradan qaldırır. Xüsusən də qış aylarında quru dərilərdə meydana gələn qaşıntı və səpgilərin aradan qaldırılmasına köməkçi olan vasitədir.

Bundan başqa nikotin turşusu (PH) zülallarının tərkibindəki əvəzolunmaz amin turşularından leysin, sistein, lizin, prolin likopin və.s ilə zəngindir. Tərkibində çoxlu miqdarda oksidantlar var bu oksidantları kökü bişirməklə 3 dəfə artırmaq olur. Bu səbəbdən də bişirilmə zamanı tərkibində vitaminlər ölü olmayan tərəvəzlərdən biridir. 50 ml təzə kök şirəsi bağırsaq yumşaldıcı təsir kimi uşağa içirilə bilər. Ağız boşluğunun xəstəlikləri zamanı balla qarışdırılaraq şirəsini ağıza sürtmək də effektlidir. İmmuniteti möhkəmləndirmək üçün hər gün 50 ml kök



şirəsini 1 çay qaşığı bal ilə içmək olar.

Yanıqların üstünə rəndələnmiş kökü kompres şəkildə qoymaq lazımdır.

Qurdqovucu olaraq uşaqlara 10 ml şirə və ya çiy kökə 1 çay qaşığı konopli yağı əlavə edərək yedizdirmək olar.

Bəzi böyrək daşlarını parçalamaq üçün kök toxumunu üyüdüb 1 qramını gündə 3 dəfə yeməkdən əvvəl istifadə etmək lazımdır.

Sidik kisəsinin və yollarının iltihabı xəstəliklərində termosda dəmlənməsini gündə 3 dəfə yeməkdən yarım saat əvvəl içmək olar.

Allergiya zamanı 3 kökün, 2 almanın şirəsini 50 qr cəfəri və 2 kiçik parça gül kələmi ilə birlikdə qarışdırıb gündə 3 dəfə yeməkdən 3 dəqiqə qabaq udmaq lazımdır.

Baş gicəllənməsi zamanı 50 ml kök şirəsi və ya kök, pazı və nar şirəsini (3:1:2) nisbətində içmək olar.

Hipertoniya zamanı təmiz kök şirəsini 1 xörək qaşığı gündə 3 dəfə ac qarına içmək lazımdır.

Beləliklə insanların sağlamlıqlarının qorunması üçün qida rasionlarına kökü də daxil etmələri məsləhətdir.

**Şəfiqə Süleymanova**
***"Təməl tibb fənləri" kafedrasının baş müəllimi***

# MÖCÜZƏVİ BİTKİ: GİCİTKƏN

Gicitkən, demək olar ki, Azərbaycanın, həmçinin Naxçıvan Muxtar Respublikasının bütün zonalarında yayılıb. Tarlalarda, bağ və bağça çəpərlərinin kənarlarında, çox günəşli sahələrdə tər, incə gicitkən cücərtilərinə rast gəlmək olar. Çox faydalı bir bitki olduğundan onun öyrənilməsi məqsədəuyğun hesab edilir.

Botaniki xüsusiyyətləri: Dünya florasının tərkibində gicitkən cinsinin 50-yə qədər növü yayılıb. Ən çox Yer kürəsinin mülayim iqlim zonalarında rast gəlinir. Gicitkən (Urtica L.) bitkisi gicitkənkimilər fəsiləsinə aid bitki cinsidir. Azərbaycan ərazisində 3 növü geniş yayılmışdır. Naxçıvan MR-də 2 növü geniş yayılmışdır bunlar 1. İkievli gicitkən (Urtica dioica). 2. Dalar Gicitkən (Urtica urens L.).

Gicitkən bitkisi el arasında "gəzənə" adı ilə də tanınır. Təzə gicitkənin faydaları onun qurusundan çox olduğu üçün, mütəxəssislər təzə gicitkəndən istifadəni tövsiyə edirlər. Bitkilər üzrə mütəxəssislər deyir ki, "gicitkənin tərkibi bir Mendeleyev cədvəlidir". Sanki bütün vitamin və minerallar bu bitkinin içinə qoyulub. Gicitkən A, E, C, K vitaminləri, dəmir, maqnezium, mis, kalsium mineralları, flavonoidlər, orqanik turşular, fitonsidlər, xlorofil, qlikozid və s. faydalı maddələrlə zəngindir.



Gicitkənin yarpaq və kök müalicə preparatlarını hazırlamaq üçün lazım olan xammalı may-iyul aylarında, çiçəkləmənin axırına yaxın toplamağı məsləhət görürlər. Çiçəyi solub başa çatdıqdan sonra bitki öz faydalı xüsusiyyətlərinin yarısını itirir. Bu bitkidən istifadə edərək erkən yazda özünüzü "canlı" vitaminlərlə təmin edə bilərsiniz. Həmin vaxt gicitkənin yarpaqları zəngin C vitamininə malik olur. Gicitkənin yarpağı çox qiymətli polivitaminli məhsuldur. Odur ki, müasir tibbdə ondan dəmləmə və duru ekstrakt halında bir sıra xəstəliklərin müalicəsində geniş istifadə edilir. Yarpaqlarında vitaminin miqdarı qarağatdakından 2 dəfə, karotinin miqdarı yerkökündəkindən, K vitamini isə ispanaq və kələmdəkindən artıqdır. Hələ çox qədim dövlərdə insanlar gicitkənin müalicəvi xüsusiyyətləri ilə tanış idilər. Dioskorid və Hippokrat gicitkən bitkisinin sirli müalicəvi xüsusiyyətləri haqqında maraqlı məlumatlar veriblər. İstər xarici ölkələrdə, istərsə də respublikamızda gicitkən dərman bitkisi kimi işlədilir.Tərkibindəki zəngin qidalı maddələr, əhəmiyyətli mineral duzlarla və həyat üçün vacib sayılan vitamin çoxluğu ilə fərqlənən gicitkən bir sıra qabaqcıl ölkələrin alimlərini çoxdandır ki, özünə cəlb edib.

Gicitkən bitkisi təzə qan yaradır və sümük iliyində problemi olanlar üçün faydalıdır. Polşa xalq təbabətində ondan qanaxmaları kəsici kimi, qaraciyər xəstəliklərində, oynaqlarda baş verən revmatizm əleyhinə, Bolqarıstan və Almaniyada qanazlığına, atereskleroza, əzələ və oynaq revmatizminə, suçiçəyinə, böyrək və sidik kisəsi soyuqdəyməsinə, qaraciyər, öd kisəsi, mədə-bağırsaq spazmalarına, həmçinin, babasil, dəridə baş verən göbələk və s. xəstəliklərə qarşı müvəffəqiyyətlə istifadə edilir. Fransada uzun sürən kəskin xroniki bağırsaq iltihabında, eləcə də vərəm, dizenteriya və s. xəstəliklərin müalicəsində işlədilir. Gicitkən çiçəyinin dəmləməsindən aşağıdakı hallarda istifadə edilir: soyuqdəymələrdə, onkoloji xəstəliklər zamanı, revmatizmdə böyrək daşları töküləndə, dəri xəstəliklərində, qurd xəstəliklərində. Gicitkən şirəsi maddələr mübadiləsini yaxşılaşdırır, həzmi normallaşdırır. " Prosmaforton" və "Bazoton" preparatları gicitkən bitkisinin kökündən hazırlanır. Gicitkən yarpaqlarının şirəsinin tərkibi ödqovucu " Allaxol" dərmanının tərkibi ilə eynidir.

Xüsusilə, mövsümlə bağlı nəfəs yollarında yaranan problemləri və qrip kimi xəstəliklərin riskini azaldır. Xroniki əzələ ağrılarında effektivdir. Tərkibində bol miqdarda mineral və kalsium var. Bunun sayəsində sümüklərin toxumasını bərpa edir. Müəyyən yaşdan sonra əmələ gələn sümük əriməsi riskini azaldır.

Gicitkənin müaliçəvi xüsusiyyətləri haqqında ilk dəfə maraqlı məlumatı İbn Sina verib. Dahi təbib doğranıb nazik toz halına salınmış gicitkənlə burun qanaxmalarının kəsilməsində istifadə edib. Toxumundan alınmış cövhər astma, hava çatışmazlığı və plevritin müalicəsində işlədilir. Şirəsinə şəkər qarışdırıb öskürək əleyhinə əla müalicəvi vasitə kimi istifadə olunub. Həmçinin şəkər əleyhinə də işlədilir. Gicitkəndən hazırlanan preparatlar polivitamin, tonusartırıcı, qankəsici, yarasağaldıcı, antiseptik, südartırıcı, sidikqovucu, bəlğəmgətirici kimi şiş əleyhinə istifadə edilir. Gicitkən yarpaqlarının tərkibindəki sekretin maddəsi orqanizmdə insulinin əmələ gəlməsini stimullaşdırır və qanda şəkərin miqdarını azaldır. Ondan hazırlanmış vanna isə məxmərək xəstəliyinə, tərləmə əleyhinə və günvurma nəticəsində bədəndə əmələ gələn yanıqların müalicəsinə kömək edir. Uşaqlıq və kəskin menstrusiya qanaxmalarının müalicəsində istifadə edilir. Uşaqlıq tonusunun normal vəziyyətə gətirilməsində, təzə alınmış şirəsindən isə yaraların, cərrahiyyə əməliyyatından sonrakı tikişlərin və kəsiklərin üzərinə çəkib onları sağaldırlar. Bu bitki ilə anemiya xəstəliyini də müalicə etmək olar. Doğranmış gicitkən yarpaqlarını suya töküb üzərinə bir stəkan sirkə əlavə edib alınan cövhərlə yatmazdan qabaq saçınızı sabunsuz yuduqda tüklərin dibinin möhkəmləndirilməsində, kəpəyin təmizlənməsində böyük faydası olur.

Gicitkən Çayları: Gicitkən çayı otun müxtəlif hissələrindən ayrıca hazırlana bilər. Bu çərçivədə toxum çayı, kök çayı, yarpaq çayı kimi növlərə ayrılır. Yarpaq çayının hazırlanmasına baxdıqda, bir stəkan qaynadılmış suya bir çay qaşığı xırda doğranmış gicitkən yarpağı atılır. Beş-on dəqiqə dəmlənir, sonra yarpaqları süzülür. Hazırlanmış çay gün ərzində orta hesabla üç stəkan və acqarına içilmədir.

Respublikamızın böyük gicitkən ehtiyatına malik olmasına baxmayaraq, təəssüflər olsun ki, bu bitkinin qeyd etdiyimiz faydalı xüsusiyyətlərindən hazırkı dövrədək çox az istifadə edilib. Möcüzəvi bitki gicitkən faydalı olduğuna və dünya ölkələrində də geniş istifadə edildiyindən Azərbaycanda da bu bitkinin geniş istifadəsinin artırılması tövsiyə edilir.

**Fatimə Babayeva**
***"Təməl tibb fənləri" kafedrası***

# ÖMÜR QATARININ VAXTSIZ YOLÇUSU – GƏNC MEMAR VƏ RƏSSAM İSMAYIL İSMAYILLI



Ömür stansiyasız bir qatardır, nə vaxt dayanacağını heç kəs bilmir. Bu dəfəki qatarın stansiyası gözlənilməz, dayanacağı isə hər kəs üçün qəfil və ağrılı oldu. 2022-ci ilin yanvar ayının 3-cü həftəsinə qədəm qoyurduq. Ayın 17-si hər zaman olduğu kimi bu gün də müsbət əhval-ruhiyyə ilə işə tələsirdim. Səhər saat 9-da aldığım qəfil xəbərdən o qədər sarsılmışdım ki, sanki eşitdiklərimi gördüyüm pis yuxu kimi özümə inandırmağa çalışırdım. Bəd xəbər tez yayılar deyirlər. Elə bu məqsədlə də telefonuma üz tutdum. Sanki aldığım dəhşətli xəbərin yalan olmasını sübut etmək istəyirdim. Ürəyimdə kaş ki, kaş ki ....yalan olsun fikirlərini təkrarlayırdım. Ancaq təəssüflər olsun ki, eşitdiklərim acı və inanılmaz bir həqiqət idi. Universitetimizin Memarlıq və Mühəndislik fakültəsinin "Memarlıq" kafedrasının sayılıb-seçilən, öz bacarığı, istedadı ilə nümunəvi olan gənc müəllimi İsmayıllı İsmayıl Cəfər oğlu bədbəxt hadisənin qurbanı olmuşdu. Bu qədər gözəl insan niyə ayrılmışdı aramızdan suallarını elə hey özümə verir, cavabını isə tapa bilmirdim. Taleyin hökmüylə razılaşmayaraq sanki üsyan edirdim. Niyə suallarımın cavabı isə yenə də sual olaraq özümə qayıdırdı. Aman Allahım, cəmiyyətimizə faydalı olacaq, öz qabiliyyəti və istedadı ilə hələ bir çoxlarının yoluna mayak olacaq insanları niyə bizdən alırsan? Axı, o həm də insanlığa, əsl vətəndaşlığa, yüksək mədəniyyətə və əxlaqa sahib olan gənc idi. Tanrım, niyə bu cür insanları bizə çox görürsən –deyə taleyin hökmüylə barışmırdım. Ən son məqamda belə hər zaman özümə təsəlli verən qəlbim isə belə təskinlik tapırdı. Tanrı sevdiyi bəndəsini öz yanına tez aparmaqla bizə işlətdiyimiz günahlar müqabilində cəza kəsir...Bilmədiyim sual- cavabların içərisində boğula-boğula Tanrının alın yazısıdır, qismətidir deyə ovunmaqdan başqa çarə qalmırdı.

Bildiyim tək bir həqiqət var ki, aramızdan əsl insan, qayğıkeş oğul, cəfakeş müəllim, istedadlı memar və rəssam ayrıldı. Öz yoxluğu ilə ailəsini, onu sevənləri (inanmıram onu sevməyən ola S.Ə) ağlar qoyub getdi.

Gözəlliklər yaratmaq arzusuyla yola çıxan gənc memarımız maraqlı və bir-birindən rəngarəng layihələrə imza atmışdı. Ali təhsil ocağında qurulacaq Texnoparkın eskiz layihəsini O vermişdi. Ötən il layihənin təqdimatında nə qədər həyəcanla çıxış etsə də, gözlərində bir o qədər qürur və sevinc var idi. Çünki çəkdiyi zəhmət qiymətləndirilərək layihəsi əsasında Naxçıvan Dövlət Universitetində möhtəşəm bir binanın təməli qoyulurdu. 2021-ci il Azərbaycan Respublikası Prezidentinin Gənclər üçün mükafatını da qazanmışdı - İsmayıl İsmayıllı.

O, 1991-ci ildə Ordubad rayonunun Nüsnüs kəndində anadan olmuşdur. 2012-ci ildə Naxçıvan Dövlət Universiteti "Memarlıq və Mühəndislik" fakültəsinin "Memarlıq" ixtisasına daxil olmuş, 2016-cı ildə həmin ixtisası fərqlənmə diplomu ilə bitirmişdir. 2016-2017 - ci illərdə Naxçıvan Dövlət Universitetində metodist, 2017 -ci ildən "Memarlıq" kafedrasının müəllimi kimi çalışırdı. Qeyd etmək yerinə düşər ki, O, həqiqi mənada çalışırdı, iş xətrinə yox, sənətinə, peşəsinə vurğunluqla işləyirdi.

Bu qısa ömrü əbədi həyatmış kimi yaşamaq lazımdır deyib aqillərimiz- İsmayıl müəllim qısa, amma mənalı ömrünü yaşayaraq onu sevənlərin, əzizlərinin qəlbində əbədiyyətə qədər həyat qazandı. Bu qədər istedad sahibi olasan, amma bu qədər də sadə və təvazökar olmağı bacarasan. Hər insanın, hər istedad sahibinin qazana bilmədiyi hörməti, sevgini qazanmışdı İsmayıl müəllim.

"İnsan var evdən gedir, insan var eldən" O, eldən, yaşadığı, doğulub boya-başa çatdığı torpaqdan, işlədiyi çoxminlik kollektivdən, onu tanıyan-tanımayan hər kəsdən getdi. Amma İsmayıl müəllim hər kəsin qəlbində xoş xatirələrlə qaldı.

Böyük işlər görmək üçün elə yaşamalısan ki, sanki heç vaxt ölməyəcəksən. İsmayıl İsmayıllı böyük işlər görmək üçün yarandı və getdi... Amma bu gün hər kəs onun varlığını hiss edir, çünki o heç vaxt ölməyəcəkmiş kimi çalışdı. O, həyatı heç vaxt ölməyəcəkmiş kimi sevdi. O, bu dünyanın gözəlliklərini hər kəsdən fərqli hiss etdi və yaşadı. Kim bilirdi ki, amansız və qəfil ölüm onu bizdən ayıracaq, gənc rəssam və memarımızın bütün arzuları elə yarımçıq qalan ömrü kimi puç olacaq. İstedad sahibi insanlar Allah qatında seçilmiş insanlardır. Çünki onlar digər insanlardan fərqli olaraq Tanrıdan daha artıq pay alırlar.

Ölümündən sonra da kollektivdə İsmayıl müəllim haqqında çox danışıldı. Deyilən bir məqam isə diqqətimi daha çox çəkdi. Son dəmə O, yeni qurulan Texnopark binasının tikintisinə şəxsən özü nəzarət edirmiş. Hər gün o binaya getməsi, işlərlə şəxsən özünün maraqlanması sənətinə vurğunluğunun əsas göstəricisi idi. O, öz uşağını əzizləyən ata kimi kərpic-kərpic qurulan bina ilə sanki özü də böyüyürdü, ucalırdı. Xəyallar o zaman gözəl və inandırıcı olur ki, onlar gerçəkliyə çevrilir. O, xəyalların gerçəyini yaşamağı bizə miras qoydu.

İsmayıl müəllim yaratdığı hər binanın eskizini qurarkən orada yaşayacaq olan insanları, onların rahatlıqlarını düşünürdü. O inanırdı ki, qurduğu hər eskiz gələcəkdə sahibinə xoşbəxtlik, hüzur, sevinc bəxş etməlidir. Öz yoxluğunla insanlara kədər bəxş edən insan, əmin ol ki, yoxluğun bizi nə qədər üzsə də, sənin gözəl əməllərin, mükəmməl xarakterin və yaratdığın bütün işlər bizim son təsəllimiz, ümid yerimizdir! Biz sənin bizə miras qoyub getdiyin mənliyin, yüksək peşəkarlığın ilə təsəlli tapacağıq!

Rahat uyu, əziz insan! Sənin yaratdıqların hələ çox insanların yoluna işıq salacaq! Sənin tələbələrin ruhuna hörmət əlaməti olaraq daha çox çalışıb, sənə layiq memar, rəssam olacaqlar. Sənin ən böyük layihən həyata keçəcək və hər kəs səni xoş xatirələrlə xatırlayacaq! Bu qədər sevgini qazandığın üçün çox xoşbəxt idin! Çünki elə insanlar olur ki, ancaq özləri üçün yaşayırlar. Ancaq sən arxanda gözəl hisslər, duyğular buraxaraq həyata vida etdin. Bəzi insanların 70-80 ildə qazana bilmədiklərini sən gənc yaşında əldə etdin. Ən əsası isə insanların qəlbinə yol tapmağı bacardın. Ruhun şad olsun! Əminəm ki, şaddır, çünki səni hər zaman xatırlayacaq, ruhuna dualar oxuyacaq insanlar çoxdur. İllər ötsə də unudulmaz olacaqsan, səni sevib-dəyər verən hər kəsin qəlbində, ümidində və xəyallarında....

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# NAĞILLAR ALƏMİ -QIŞ



Deyirlər ki, təbiət ən yaxşı sənətkardır. Yer üzündə o, ildə dörd dəfə rəngarəng, ecazkar mənzərələr yaradır, ətraf aləmi müxtəlif rənglərlə boyayır. Qışda isə sadəcə bəyaz rəngə üstünlük verir. Paklığın və məsumiyyətin rəngi-bəyaz! Belə bir solğun palitraya baxmayaraq, qış bir nağılın təcəssümüdür.

Qış möcüzəli, sirli bir aləmdir. Soyuq olsa da hər tərəfə gözəllik hakimdir. Gündüzləri həzin, ney sədası hər tərəfi bürüyür sanki, axşam isə günəş üfüqün altına qərq olanda ətraf gümüşü rəng tonlarıyla parıldayır. Bu fəsil məhəbbətini qara döndərir, ələdikcə ələyir. Bəmbəyaz bir örtük sərir hər tərəfə. Ağappaq qar nə qədər təzə duyğular oyadır, köhnə xatirələri yenidən dirçəldir, insanı bu gündən dünənə aparır. Bu qış duyğuları bizi keçmişin uşaq sevincinə qərq edir. Qışın nübarı ələnir yer üzünə. Adama elə gəlir ki, yağan qar deyil, dövrəsində uçuşan kəpənəklərdir.

Qar yağır… uşaq sevinci ilə bayıra atılmaq, qəlbini bu təmizliyə, bu saflığa açmaq istəyirsən. Dərin səma ənginliklərindən yağan bu sevincdən, fərəhdən hamıya pay düşür. Nağıla dönür dünya. Nağıl qoynunda nəfəs alır insanlar. Nənələr açır nağıl boğçalarını. Uzandıqca uzanır nağıllı gecələr. Təbiət başdan başa qar təmizliyinə bələnir, saflığın, təmizliyin ağ işığı üzə çıxır. Yerlə göy arasında sanki pərdə asılıb. Külək bu pərdəni hey yelləyib, ağappaq vərəqə döndərir dünyanı. Bəlkə də ağ rəng üzərində daha gözəl, əsrarəngiz lövhələr yaradacaqdır.

… Qış günəşi qürub edir və ay səmada yavaş-yavaş üzür.Ulduzlar aydın gecə səmasında növbə ilə yanır. Təbiət yenə gümüşü tonlarda parlayır.Qışın yaratdığı bu möhtəşəm nağıllar aləminə məftun olmamaq mümkün deyil. Təbiətin yaratdığı əfsanəvi etüdləri sadəcə seyr etmək və zövq almaq lazımdır.

**Gülarə Babayeva**
***Azərbaycan dili və ədəbiyyatın tədrisi metodikası və metodologiyası üzrə I kurs magistrant***

# UĞUR QAZANMAQDA DAXİLİ İNTİZAMIN GÜCÜ



Həyatda uğur qazanmağın yolları haqqında düşünərkən Amerikalı yazıçı və müəllim Mark Tvenin sözlərinə laqeyd qalmaq olmur. Onun fikrincə "Uğursuzluq üçün minlərlə bəhanə olduğu halda bircə dənə də olsun real səbəb yoxdur". Nə üçün bəzi insanlar digərlərindən daha uğurlu olur?. Nə üçün bəziləri həyatda daha çox şeyə nail olur? Uğurun "sirri" nədir?

Bu suallara cavab axtararkən görürük ki, əslində biz hamımız bu gözəl istəklərə malikik. Biz nəinki bu istəklərə malikik, hətta onlara nail olmağın yollarını da bilirik. Amma işə başlamazdan əvvəl "nə vaxtsa" məqsədimizə nail olmaq üçün görəcəyimiz işlər və əldə edəcəyimiz nailiyyətlər haqda düşünür, xəyallar qururuq.

Bunlar isə uğur üçün öldürücü təsirə malik olan bəhanələrdir. Uğursuzluq bəhanə gətirir, qaliblər isə inkişaf edir. Deyirlər, insan bir işə bəhanə gətirməyə sərf etdiyi qədər enerjini səmərəli bir işə sərf etsə, aldığı nəticə özünü belə təəccübləndirər.

Buna görə də uğurun birinci qaydası çox sadədir: Bəhanələrə son qoy! İşi ya gör, ya da görmə, amma bəhanə gətirmə. Beynini fəaliyyətsizlik üçün müxtəlif bəhanələr uydurmağa sərf etməyi dayandır. Bir iş gör. Özün üçün təkrar et: "Görüləcək iş, sadəcə, məndən asılıdır!".

Uğurun sirlərindən biri də daxili intizamdır. Daxili intizam istəyimizdən asılı olmayaraq lazım olan işi görmək bacarığıdır. Daxili intizam özünü dəyərləndirməyin, özünə hörmətin və fəxrin açarıdır. Daxili intizam bütün çətinlikləri aşıb, istədiyimiz həyata nail olmağımızın qarantıdır.

Bəzi insanların digərlərindən daha çox uğur qazanmağının səbəbi daxili intizam aşılamaq bacarığıdır. Gələcəkdə daha böyük nailiyyətlər qazanmaq üçün indiki məmnuniyyətlərin təxirə salınması bacarığı daxili intizamın tələbidir.

Hər gün və hər dəqiqə bizim daxilimizdə lazımlı, düz, amma çətin olan işi görməklə, daha asan, maraqlı və heç bir faydası olmayan işi görmək arasında mübarizə gedir. Əldə edə biləcəyimiz uğurları qazanmaq istəyimiz həqiqidirsə, onda özümüzü lazım olan işi görməyə vadar etməklə daxilimizdəki mübarizəni udmalıyıq.

Deməli, qarşıya qoyulan istənilən məqsədə nail olmaq olar, yetər ki, onun haqqını ödəmək və heç vaxt ruhdan düşməmək üçün daxili intizam olsun.

**Yaqut Şükürova**
***Ümumi nəzəri fizika kafedrasının müəllimi***

# POEZİYA

Poeziya süd qoxulu körpənin təbəssümünə bənzər, ziyadan, məkrdən uzaq süd kimi təbəssümünə. Bu süd qoxulu təbəssüm önündə qaba könüllər belə incədən incə olar. Poeziya ilahi göylərin, Adəm övladına sonsuz sevgisinin əbədi lütfünün təzahürüdür. Poeziya insan oğluna hava kimi, su kimi gərəkdir. O bizim ruhumuzun qidasıdır. Ömrümüz onsuz, ulduzsuz, göylərə bənzər, gülsüz-çiçəksiz çöllərə bənzər…

Biz dünyaya göz açanda anamızın gözlərində görürük onu. O, anamızın laylasıyla birgə axıb qəlbimizə dolur. O günəşin işığı, ayın nuru kimi bizimlədir.

Ah poeziya! Sən necə mərhəmətlisən. O böyük, dahi Nizami əlini qələmə uzadanda sən xeyirxah mələk kimi çiyninə qonub sirli-sehrli sözlər pıçıldadın:

Mən fikirlər ustadıyam, fəzilətim bi ümmandır,
Zamanlara, məkanlara hökm etməyim səmadandır.

Ah poeziya! Sən susuzluqdan çat-çat olmuş torpaqlara yağan yağış kimi könüllərə yağırsan. Bəzən suallar önündə aciz qalanda, əlimiz-qolumuz bağlananda ruhumuzdan nida kimi qopursan. Sən gah günəş kimi bizi isidirsən, gah da ay işığı kimi xəyallarımızı qanadlandırırsan. Sən gənclik çağlarımızın ən romantik, ən əziz sirdaşısan. Ruhumuz kədərdən süst düşəndə də , sevincdən quş kimi çırpınanda da, sevincimizi kədərimizi sənin dilinlə pıçıldamışıq. İlahi eşqi tərənnüm edən o böyük şair Füzuli ilahi gözəllik önündə heyrətdən dönüb qalanda, onun ruhundan nəğmə kimi axıb gələn sən oldun.:

Heyrət, ey büt, surətin gördükdə lal eylər məni,
Sürəti-halım görən, surət xəyal eylər məni.

Ey insan övladı, sən poeziyaya doğru getdikcə, qəlbinə bir sevgi, mərhəmət dolacaq, kindən, təkəbbürdən, lovğalıqdan uzaq olacaqsan. Qəlbən paklanacaq, rahatlıq tapacaqsan…Mikayıl Müşfiq demişkən.



Kainat olduqca şeir, sənət, yaradıcılıq -poeziya olacaq. Ruhumuzda onun nuru, qanımızda onun hərarətini hiss edə-edə dünyanın saysız-hesabsız suallarına cavab axtaracağıq. Bizi zirvədən zirvəyə səsləyəcək. Hər şey köhnəlsə də, dünya qocalsa da poeziya təzə-tər qalacaq, süd qoxulu körpənin təbəssümü kimi….

**Gülarə Babayeva**
***Azərbaycan dili və ədəbiyyatın tədrisi metodikası və metodologiyası üzrə I kurs magistrant***

Baş redaktor:
ŞƏHLA ŞİRƏLİYEVA
shshahla36@gmail.com

*Ünvan: AZ 7012, Naxçıvan şəhəri, Universitet şəhərciyi*
*Telefonlar: 544-08-61 (13-60)*
*yenifikir.ndu@gmail.com*

*Qeydiyyat №330*
*Sifariş №*
*Tiraj 500*

*Redaktor: Samir Tarverdiyev*
*"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində ofset üsulu ilə çap olunmuşdur.*